Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

12-ci cild

29 noyabr 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# I SESSİYASI İCLASININ

# PROTOKOLU № 13

*Milli Məclisin iclas salonu.*
*29 noyabr 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 116 deputatı iştirak etmişdir.**

| **Qeydiyyat** | (saat 11.05 dəq.) |
|---|---|
| İştirak edir | 100 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında 14 sentyabr 2017-ci il tarixli Sazişə İkinci Qoşma"nın qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

2. "Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında diplomatik, xüsusi və xidməti pasport sahiblərinin qısamüddətli vizadan qar-

şılıqlı azad edilməsi haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

3. "Azərbaycan Respublikası Hökuməti ilə İndoneziya Respublikası Hökuməti arasında diplomatik və xidməti pasportların sahiblərinin vizadan azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında" və "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

9. "Arbitraj haqqında" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi

qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

10. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

11. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

12. "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

13. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

14. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

15. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublika-

sı qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vüqar Bayramov, Jalə Əliyeva, Aydın Mirzəzadə, Bəhruz Məhərrəmov, Zahid Oruc, Aydın Hüseynov, Hicran Hüseynova, Azay Quliyev, Bəxtiyar Əliyev

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.05 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**1. "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında 14 sentyabr 2017-ci il tarixli Sazişə İkinci Qoşma"nın qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Bəhruz Məhərrəmov, Vüqar Rəhimzadə, Aydın Mirzəzadə, Bəxtiyar Əliyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**2. "Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında diplomatik, xüsusi və xidməti pasport sahiblərinin qısamüddətli vizadan qarşılıqlı azad edilməsi haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov, Rizvan Nəbiyev, Ceyhun Məmmədov, Məlahət İbrahimqızı

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**3. "Azərbaycan Respublikası Hökuməti ilə İndoneziya Respublikası Hökuməti arasında diplomatik və xidməti pasportların sahiblərinin vizadan azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov, Aydın Mirzəzadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Sadiq Qurbanov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**5. “Heyvanlar aləmi haqqında”, “Ətraf mühitin mühafizəsi haqqında” və “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası**

**qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**6. "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əhliman Əmiraslanov, Rəşad Mahmudov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**7. "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

**8. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

**9. "Arbitraj haqqında" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamran Bayramov,

Soltan Məmmədov, Azər Əmiraslanov, Könül Nurullayeva

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**10. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova, Zahid Oruc

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**11. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Soltan Məmmədov, Hicran Hüseynova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**12. "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əminə Ağazadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 108 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**13. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Pərvanə Vəliyeva

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–7-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 107 |

| | |
|---|---|
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**14. “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Hicran Hüseynova, Zahid Oruc, Nigar Məmmədova, Əhliman Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 4-cü və 5-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**15. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Vüqar Bayramov, Soltan Məmmədov, Elçin Mirzəbəyli, Əlibala Məhərrəmzadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*29 noyabr 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.05 dəq.) |
| İştirak edir | 100 |

İclasa başlaya bilərik, yetərsay var.

İndi isə xahiş edirəm, gündəliyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.05 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi. 30 dəqiqəmiz var, cari məsələlərlə bağlı 10 nəfər danışa bilər. Kifayət qədər siyasi proseslər gedir. Mən düşünürəm ki, bu məsələlərlə də bağlı fikirlərinizi bildirə bilərsiniz. Kim yazılmaq istəyirsə, yazılın.

10 nəfərin siyahısını saxlayacaqsınız. 9 nəfər. Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov**. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Azərbaycanda sosial təminatın daha da gücləndirilməsi cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin prioritet istiqamətlərindəndir. Bu özünü, eyni zamanda, dövlət büdcəsinin xərclərinin, bütövlükdə, dinamik olaraq artmasında da göstərir. Mən bu kontekstdən bir neçə müqayisələri təqdim etmək istərdim.

Belə ki, Vətən müharibəsindən sonra, 2021-ci ildə dövlət büdcəsinin sosial yönümlü xərclərinin məbləği 12 milyard 202 milyon manat idisə, bu göstərici 2022-ci ildə

13,7 milyard manat, 2024-cü ildə 15 milyard 539 milyon manat, 2025-ci ildə isə 16 milyard 900 milyon manat nəzərdə tutulub. Göründüyü kimi, sosial yönümlü xərclər hər il əvvəlki ilə nisbətən dinamik olaraq artır. Praktik olaraq 2021-ci illə müqayisədə 2025-ci ildə Azərbaycanda dövlət büdcəsində sosialyönümlü xərclər 4 milyard 707 milyon manat artıq proqnozlaşdırılıb. Xüsusən nəzərə alaq ki, 2021-ci ildən etibarən Azərbaycan Qarabağ və Şərqi Zəngəzurun qurulması üçün öz daxili maliyyə mənbələri hesabına vəsait ayırır və yalnız ötən müddətdə işğaldan azad olunmuş ərazilərimizin bərpasına 18 milyard manata yaxın vəsait ayrılıb. 2025-ci ilin dövlət büdcəsində nəzərdə tutulan vəsaiti nəzərə alsaq, bu o deməkdir ki, bütövlükdə, növbəti ilin proqnozu daxil olmaqla Qarabağ və Şərqi Zəngəzurun qurulması üçün 22 milyard manat vəsait ayrılacaq.

Bu kontekstdən, eyni zamanda, sosial xərclərin dinamik olaraq hər il əvvəlki illərə nisbətən artması və 2025-ci ildə 2021-ci illə müqayisədə 5 milyard manata yaxın artıq vəsaitin illik olaraq xərclənəcəyi və son 5 ildə icra edilən 4 sosial paketə 7 milyard manata yaxın vəsaitin ayrılması ondan xəbər verir ki, sosial təminat tədbirləri cənab Prezidentin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindəndir və Azərbaycanda kifayət qədər güclü sosial baza formalaşıb.

Eyni zamanda, xüsusən sosial mediada bir sıra qərəzli və doğru olmayan açıqlamalara cavab olaraq qeyd etmək istərdim ki, bütövlükdə, Azərbaycanın 2025-ci ildə 10 milyard dollarlıq sosialyönümlü xərcləri Cənubi Qafqazın iki ölkəsinin birgə sosialyönümlü xərclərindən 2,5 dəfə çoxdur. Eyni zamanda, 2025-ci ildə Azərbaycanın sosial

xərcləri Ermənistanın ümumi büdcəsindən 67 faiz çox olacaq. Məncə, bu rəqəmlər kifayət edir ki, məhz reallığı düzgün qiymətləndirə bilək. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Jalə Əliyeva.

**Jalə Əliyeva**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri və media mənsubları. Fransanın "Arte" kanalında "Azərbaycanlılar və türklər iki qardaş xalqlardır və eyni vəhşilikləri törətməyə qadirdirlər" kimi Azərbaycana qarşı böhtan və iftiralarla dolu sənədli film yayımlanıb.

Qərbi Azərbaycan İcmasının ötən gün bu filmə etiraz olaraq yayımladığı bəyanata qoşularaq demək istəyirəm ki, bu günə kimi bütün dünyada işğalçı siyasət həyata keçirən, öz mənafeləri uğrunda digər xalqları qurban verən Fransa kimi bir ölkənin kanalında azərbaycanlılar və türklər əleyhinə gedən böhtan və iftiralarla dolu sənədli film bir daha bu ölkənin Azərbaycana, Türkiyəyə, türk dünyasına qarşı qərəzli, həzmsizlik siyasətini ortaya qoyur.

Belə ki, illərdən bəri erməni lobbisinin əlində oyuncağa çevrilmiş Fransa, eyni zamanda, bölgədə öz istəklərini də elə Ermənistanın əli ilə həyata keçirməyə çalışır.

Biz 30 ildən artıq torpaqlarımız uğrunda mübarizə apardıq. Haqsız münaqişə ilə qarşı-qarşıya qaldıq. Torpaqlarımız işğal edildi, insanlarımız qaçqın, köçkün vəziyyətinə düşdü. O torpaqlardakı mədəni abidələrimiz yerlə yeksan edildi. Amma 30 il ərzində dünyaya demokratiya dərsi keçən ölkələr, Qərb bizə qarşı edilən haqsızlıqları görmədi. Bunun əksinə, Ermənistanı silahlandırdılar, Azərbaycanla sülh danışıqlarına getməyə hər vəchlə mane olmağa çalışdılar.

Həmin dövrdə ATƏT-in Minsk qrupu adı altında yaradılan qrupun, sadəcə, bölgəyə turist səfərləri təşkil edildi. Burada məqsəd münaqişəni bitirmək və yaxud tənzimləmək deyil, münaqişəni Ermənistanın xeyrinə, Azərbaycanın zərərinə uzatmaq idi. Bu qrup, əslində, elə bu məqsədlə yaradılmışdı.

2020-ci il sentyabrın 27-də ölkə Prezidenti cənab İlham Əliyevin bir çağırışı ilə Azərbaycan xalqı, Azərbaycan gənci öz torpaqları uğrunda ayağa qalxaraq şanlı müharibəyə başladı. 44 gün müddətində böyük bir Zəfər əldə edərək, 30 ildən artıq işğalda, düşmən tapdağı altında qalan torpaqlarını işğaldan azad etdi.

Bu gün bu torpaqlarda, bütün Azərbaycanımızda olduğu kimi, böyük quruculuq işləri həyata keçirilir. Ölkəmiz ölçüyəgəlməz yüksək templə inkişaf edir. Əlbəttə ki, bu inkişafdan narahat olan qüvvələr var. 30 il müddətində münaqişəni bitməyə qoymurdular, çünki Azərbaycanın inkişaf etməsindən qorxurdular. Bu gün də müharibədən sonra Azərbaycana hər vəchlə mane olmağa çalışırlar.

Bu günlərdə yola saldığımız, böyük bir uğurla ev sahibliyi etdiyimiz COP29 ərəfəsində, həmin günlərdə və tədbir bitdikdən sonra da bu şər qüvvələrin, şər maşınının durmadan işləməsi, Azərbaycana böhtanlar, iftiralar yağdırması yenə də onların böyük təşvişindən, Azərbaycanın gücü qarşısında keçirdikləri narahatlıqlardan, ehtiyatlanmalardan xəbər verir. Bu davranışlar həm Azərbaycana, həm də Türkiyəyə qarşı Qərbin, dünyanın qısqanclığının bariz nümunəsidir.

Əslində, bu sənədli film illərdən bəri Azərbaycanın həqiqətlərini görməzlikdən gələn, bu gün Azərbaycanın bölgədə və dünyada sülhyaratma missiyasını, sülh və

əmin-amanlıq üçün həyata keçirdiyi siyasəti həzm edə bilməyənlərin özünün vəhşi xislətini bir daha ortaya qoyur. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Bir məsələyə münasibət bildirmək istəyirəm. Bu günlərdə Polşa Prezidenti qonşu Ermənistana rəsmi səfər etdi. Əgər bir addımı ilə gündəmə gəlməsəydi, buna əhəmiyyət verməmək də olardı. Onun Ermənistan–Azərbaycan sərhədinə gedərək, orada biabırçı binokl diplomatiyasına qoşulması və oradan Azərbaycan ərazisini izləməsi Polşanın, Polşa Prezidentinin adına layiq olmayan bir hərəkət idi. Bu, Polşanın rəhbəri, birinci şəxsi tərəfindən bütün yazılmış, yazılmamış qanunlara bir hörmətsizlik idi.

Azərbaycan və Polşa arasında münasibətlər az qala strateji müttəfiqlik səviyyəsindədir. Polşa mütəxəssisləri Azərbaycanın inkişafında, həm neftlə bağlı ilk inkişafı dövründə, həm də Cümhuriyyət dövründə böyük iz qoymuşdular. Bu gün Azərbaycan universitetlərinin birində polyak dili öyrənilir. Bu gün Bakıda katolik kilsəsi fəaliyyət göstərir. Azərbaycan və Polşa əlaqələri bütün sahələri əhatə edir. Polşa Prezidenti kimi təcrübəli bir adamın nə səbəbdən belə bir düşünülməmiş addım atması, açığını deyim, hər kəsdə bir təəssüf və təəccüb doğurur. Nədən Polşanın birinci şəxsi Fransanın, Niderlandın, Kanadanın, Hindistanın vaxtaşırı Azərbaycana qarşı apardığı çirkin kampaniyaya qoşulmaq qərarına gəlib? Çox istərdik ki, Polşa tərəfi bu məsələyə aydınlıq gətirəydi.

Belə addımların heç də hörmət gətirmədiyi, ikitərəfli münasibətləri möhkəmləndirmədiyi qənaətinə gələrdi və eyni zamanda, mən hesab edirəm, digər dövlətlər də

Azərbaycana qarşı tərəddüdlü mövqe tutmamalıdır, bilməlidirlər ki, Azərbaycan müstəqil dövlətdir. Bizim müstəqil daxili, xarici siyasətimiz var. Bizə dost olanlarla dostuq, bizə münasibəti soyuq olanlara qarşı isə müvafiq addım atırıq. Çox istərdim ki, Polşa tərəfi bu məsələyə aydınlıq gətirəydi və bir daha onun tərəfindən bizə qarşı belə bir münasibət olmayaydı. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov**. Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. COP29-da Azərbaycanın özünün qlobal lider missiyasını ləyaqətlə yerinə yetirməsi, əslində, regionda təcavüzkar niyyətlərini açıq müstəviyə keçirmiş Qərb imperializmi üçün fiasko demək idi. Konfransda ümumbəşəri nəticələrə yol açan qərarların alınması ilə bilirsiniz ki, tədbir ərəfəsində ölkəmiz əleyhinə çoxsaylı cəhdlərin, sərf olunan resursların boşa çıxması ortaya çıxdı. Bu mənada, cənab İlham Əliyev COP29-un Liderlər Sammitində çıxışı və tədbir sonrası bölüşdüyü fikirlərlə, əslində, bu xalqa qalib sərkərdənin triumfunu yaşatdı və bu, miqyasca 8 noyabr Zəfərinin nəticələrinin qlobal platformaya daşınması hesab olunmalıdır.

Amma görünən odur, necə ki, Vətən müharibəsi və antiterror tədbirləri, eləcə də COP-da əldə olunan nəticələrlə Azərbaycan cənab İlham Əliyevin təbirincə desək, elə daşları yerindən tərpədib, təcavüzkar qütb hələ də bizdən əl çəkmək istəmir.

Antiterror tədbirlərinin ardınca qınına çəkilmiş, lakin aylar sonra, COP ərəfəsində yenidən dirçələrək “monitorinqlərə” başlayan Avropa İttifaqının Ermənistandakı müşahidə missiyası səylərinin puça çıxmasının ardınca tədbirdən sonra Azərbaycan–Ermənistan şərti sərhədlərin-

də yenidən fəallaşmaqla görünən odur ki, bu missiyaya, o revanş missiyasına təkrar start verirlər.

Çox təəssüflər olsun ki, bəzi beynəlxalq subyektlərin rəhbərləri vəzifə öhdəliklərini və öz xalqlarının milli maraqlarını nəzərə almadan, bu prosesdə alət kimi istifadə olunmağa başlayıb. Polşa Prezidentinin Avropa İttifaqı təxribat missiyasının binokl şousunda iştirak etməsi bu mənada təəssüf doğurur.

Təəccüblü deyil ki, Qərbin revanş missiyasına imperializmin Azərbaycandakı marionetləri, antimilli ünsürlər də adəti üzrə, sözün əsl mənasında, züy tutmaqdadır. Evinə normal modem alıb qoya bilməyən adam – ünsür hökuməti ona internet blokadası tətbiq etməkdə günahlandırır və Qərb muzdu ilə mövcudluğunu sürdürən media, o cümlədən sosial media qaragüruhu da belə saxta məlumatları tirajlayır. Bax, belə bir ucuz situasiya ilə üzləşmişik.

Çox təəssüflər, bəzən cəmiyyətdə, xüsusən sosial mediada belə təəssürat formalaşır ki, cəsarət ancaq tənqid etməkdir. Cəsarət ancaq mənfiliklər axtarıb, tapıb səsləndirmək, paylaşmaqdır. Amma ən böyük cəsarət, əslində, yaxşı işləri dilə gətirmək bacarığıdır.

Biz unutmamalıyıq ki, tarixin ən qüdrətli dövrünü yaşayırıq, bunu dilə gətirməyib biz nədən danışacağıq. Bu gün dünyanı lərzəyə salan güclərin Azərbaycana yeganə təsir cəhdi binokllarla baxmaqdan o yana keçmir. Ona görə də ancaq qalib kimi, güclü kimi, İlham Əliyev kimi düşünməyə, qalib kimi davranmağa başlamalıyıq və bunu bacarmalıyıq. Unutmamalıyıq ki, qələbənin nəticələrini gələcək nəsillərə ötürmək bizim öhdəliyimizdir. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Zahid Oruc**. Hörmətli sədr, 1927-ci ildən başlayaraq nüfuzlu "Time" jurnalı ilin adamını elan edir. 100 illik mükafatçılar sırasında Ruzvelt, Stalin və onlarca dövlət rəhbərləri ilə yanaşı, İraqa və Əfqanıstana qoşun yeridən liderlərin də adları var. Lakin bizi maraqlandıran çoxmilyonluq dərginin əsaslandığı seçimin meyarları deyil, SSRİ-nin dağılmasında və yeni dünya təhlükəsizliyinin qurulmasında müstəsna rol oynayan, Qarabağ konfliktini həll edən bir liderə ədalətli qiymətin verilməməsidir. Yaxşı xatırlayırıq ki, 1989-cu ilin 25 dekabrında "Newsweek" jurnalının üz qabığını "İlin xalqının azadlığı üçün ayağa durun" sərlövhəsi ilə bəzəyərək azərbaycanlıları dünyaya nümunə göstərmişdilər. Əlbəttə, məqsəd əsla millətimizin müstəqillik mübarizəsinə dəstək deyildi, Sovetlər Birliyinin dağılmasına təkan vermək idi. Cəmi 30 il sonra nəinki Amerika mediası, həm də qlobal Qərb mətbuatı xalqımızı ermənilərə qarşı çoxsaylı milli, dini cinayətlərdə ittiham edərək, ona qarşı sanksiyalara çağırırdılar.

Uzun illər meydanlarda millətin gələcəyini istismar edənlər "Newsweek" jurnalının üzünü görmədikləri qərarını öz nailiyyətləri kimi təqdim edərək ilin xalqını bir milyonluq köçkünə, ölkəsini çadırlar və çiy kərpiclər məmləkətinə çevirdilər. 2022-ci ildə eyni üsulla ABŞ Konqresi, Senatı və Bundestaq binalarında şərəfinə təmtəraqlı sözlər və mükafatlar yağdırılan Zelenskini Çörçildən böyük elan edib məğrur Ukrayna xalqını didərginə, ərazisini xarabalığa çevirdilər. Ona görə də Azərbaycan xalqının lideri İlham Əliyev heç bir dünyəvi ada, titula iddia etmədən, öz millətinin xilaskarı kimi çıxış edərək qlobal layları tərpətməyi bacardı. BMT qərarını həyata keçirib Baş katibini qalibiyyət paytaxtına gətirən tək

rəhbər oldu.

Ona görə də biz "Time" jurnalının Azərbaycan liderini və xalqını 2024-cü ilin qalibi elan etməsini gözləmirik. Lakin İlham Əliyevin qələbəsi Ağ Ev, Yelisey və Brüsseldən icazəsiz qazanıldığı üçün qlobal müharibə partiyası, onun mətbuat şəbəkəsi ölkə rəhbərinə qarşı çirkli kampaniya aparır. Qələbəmizi əlimizdən almağa, mümkün olmadıqda, onu ləkələməyə çalışanlar qorxurlar ki, İlham Əliyevi ilin adamı elan etsələr, əsarətə və işğala məruz qalan bütün xalqlara lider nümunəsi, millətlərə parlaq simvol verərlər.

Zəfərdən sonra bütün qitələri, dinləri və mədəniyyətləri iqlim zirvəsinə toplayan dövlət başçısı dünyadakı siyasi böhranlara və nüvə təhlükəsinə yol verməmək üçün hamını sülhə çağırır. Bəli, azərbaycanlılar 1989-cu ildə deyil, məhz indi, çoxəsrlik məğlubiyyət və köçkünlük tarixini yendikdən sonra dünyanın bir nömrəli xalqına çevriliblər. Türk dünyası, müsəlman aləmi, nəhayət, ədalət tərəfdarı olan hər bir insan qələbəmizi özününkü saya bilər. Əsl "time" bir ilin deyil, bir əsrin lideri olmaqdır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aydın Hüseynov. Buyurun.

**Aydın Hüseynov**. Hörmətli sədr, hörmətli millət vəkilləri, media nümayəndələri. Məlumdur ki, büdcə zərfi birinci oxunuşda çox geniş şəkildə təhlil olundu, müzakirələr aparıldı və bu təhlillər, müzakirələr cəmiyyətdə də çox müsbət qarşılanıb. Eyni zamanda, biz büdcə müzakirələrində də gördük ki, doğrudan da, dövlətin, cənab Prezidentin həyata keçirdiyi siyasətin əsasında Azərbaycan vətəndaşı, onun sosial rifah halının yüksəldilməsi dayanır.

Büdcəmizdə 41 faizdən çox sosial xərclərin olması,

eləcə də ən başlıcası, bizim müdafiə xərclərimizə, sərhəd-lərimizin qorunması, ordumuzun daha da möhkəmlən-dirilməsi üçün kifayət qədər vəsaitin ayrılması və eyni zamanda, xüsusi ilə sosial sahədə aparılan islahatlarla, bu sahədəki uğurlarımızla bağlı əgər biz hər birimiz danışmaq istəsək, sözsüz, bu, xeyli vaxt aparar. Təkcə onu demək kifayətdir ki, əgər bir neçə il bundan əvvəl, konkret olaraq 2018-ci ildə, – az bir müddət keçib, – ondan sonra-kı dövrlərdə minimum əmək haqqı əgər 180 manat idisə, indi 400 manatdır. Bu, 200 faizdən çox artım deməkdir. Digər tərəfdən, 7,5 milyard manat təkcə sosial zərflərin reallaşmasına sərf olundu. Digər tərəfdən, biz həmişə gördük ki, dövlət vətəndaşının yanındadır. Pandemiya dö-vründə həm iş adamlarına, həm də, deyək ki, vətəndaşlara həssas yanaşıldı, daim onların yanında oldu.

Pandemiya dövründən danışdım. Pandemiya dövründə, deməli, 600 mindən çox vətəndaşımıza birdəfəlik kom-pensasiyalar verildi, yardımlar göstərildi. Bu, bir daha onu göstərir ki, dövlətin apardığı siyasət digər istiqamətlərlə yanaşı, sosial siyasətdir. Dövlətin apardığı siyasət vətən-daşın yanında olmaqdır. Bu gün də vətəndaş öz dövlətinin yanındadır, aparılan islahatlar, qazanılan uğurlu nəticələr bu gün hər birimizi sevindirir. Mən hesab edirəm ki, bizim hər birimizin vəzifəsi də bir parlament üzvü olaraq döv-lətin apardığı siyasətin mahiyyətini düzgün şəkildə ifadə etməkdir. Çünki vətəndaşlar, insanlar, cəmiyyət onsuz da bu siyasətin mahiyyətini çox düzgün qiymətləndirir, çox düzgün dəyərləndirir və mən düşünürəm ki, bizim bu tərzdə ifadə etdiyimiz fikirlər, eyni zamanda, dövlətin siyasətinin bir təcəssümüdür. Mən bir daha hər birimizə gələcək işlərimizdə uğurlar arzulayıram.

**Sədrlik edən.** Çox sağ olun. Hicran Hüseynova. Buyurun.

**Hicran Hüseynova**. Çox sağ olun. Xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Azərbaycan COP29-da öz adını dünya tarixinə yazdırdı. Dövlətimizin bu uğura əvvəlcədən əmin olması beynəlxalq diplomatiyada güclü mövqeyini bir daha təsdiqlədi. Geniş miqyaslı və planlaşdırılmış böhtan xarakterli kampaniyalara baxmayaraq, ölkəmiz iqlim danışıqlarında tarixi nəticələr əldə etməyi bacardı və beləliklə, ölkəmizin uğurlarını qəbul edə bilməyən bəzi xarici dairələr tərəfindən təşkil edilən baykot kampaniyası iflasa uğradı.

Azərbaycanın təşkil etdiyi bu tədbir fərqləndi. Çünki burada yüksək səviyyəli təşkilatçılıqla yanaşı, çoxşaxəli əməkdaşlıq imkanları da yaradıldı. Xüsusi ilə Azərbaycan hökumətinin Uşaqlar, Gənclər və İqlim Fəaliyyəti Bəyannaməsini imzalaması və "İqlim dəyişikliyi və gender əsaslı zorakılıq" üzrə yüksək səviyyəli panel müzakirəsi iqlim dəyişikliyi ilə mübarizənin və gender bərabərliyinin qarşılıqlı təsirini vurğulayan mühüm bir platforma oldu. Bu təşəbbüslər gələcək nəsillər üçün sağlam və təhlükəsiz bir gələcək yaratmaq yolunda da mühüm addımlar oldu. Hörmətli Prezidentimiz cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu tədbirdə göstərdikləri yüksək təşkilatçılıq və diplomatik səylər ölkəmizin beynəlxalq nüfuzunu daha da artırdı.

COP29-da Azərbaycanın türk dövlətləri ilə güclü əməkdaşlığı da özünü bir daha göstərdi. Türk Dövlətləri Təşkilatının üzvü olan ölkələrlə birlikdə Azərbaycanın iqlim siyasətindəki mövqeyi daha da gücləndi.

Hörmətli xanım sədr, eyni zamanda, xüsusi qeyd etmək

istəyirəm, Sizin rəhbərliyinizlə COP29-da keçirilən platformalarda parlamentlərlə, gələn qonaqlarla çox yüksək səviyyədə parlament gününün keçirilməsinin çox böyük əhəmiyyəti oldu. Bununla biz Azərbaycanın güclü səsini bir daha dünyaya çatdırdıq.

Eyni zamanda, QHT-lər və bir çox təşkilatlar da COP29-da iştirak etdi. Ümumiyyətlə, xüsusi olaraq vurğulamaq istəyirəm, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 çərçivəsində, demək olar, hərtərəfli görüşlər, qəbul olunan yekun sənədlər göstərdi ki, Azərbaycanın dünyada böyük bir nüfuzu var. Artıq bu tədbir...

**Sədrlik edən.** Sağ olun. Azay Quliyev. Buyurun.

**Azay Quliyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Siz özünüz də şahidi oldunuz ki, COP29-la bağlı müzakirələr həm milli səviyyədə, həm də beynəlxalq səviyyədə davam etməkdədir. Bu da təsadüfi deyil. Çünki Azərbaycan elə bir beynəlxalq tədbirə ev sahibliyi etdi, elə bir nailiyyətə imza atdı ki, bu, təkcə bir bölgənin deyil, bütövlükdə, planetin gələcəyini müəyyən edən bir qərar, bir tədbir oldu. Ona görə də burada həm həmkarlarım qeyd etdi, həm də hesab edirəm, beynəlxalq səviyyədə davam edən müzakirələrin də fonundan belə bir nəticəyə gəlmək olar ki, əlbəttə, qəbul olunan qərar heç də asan olmadı.

Bilirsiniz ki, Azərbaycan bu prosesə başlayandan bəri çox az vaxtda bu işləri həyata keçirməli oldu və mövcud vəziyyəti düzgün təhlil edən Azərbaycan Prezidenti cənab İlham Əliyev çox doğru, məqsədyönlü və nəticəyönlü bir strategiya müəyyənləşdirdi. Nəticə elə oldu ki, bilirsiniz, həmin ərəfədə ən mühüm, ən vacib məsələ maliyyə məsələsinin gündəmə gətirilməsi idi və uzun müddət davam

edən bu müzakirələrin müsbət, məntiqi yekunlaşması idi.

Çətinlik ondan ibarət idi ki, müxtəlif geosiyasi maraqlar, qlobal Cənubla qlobal Şimal arasında fikir ayrılıqları, yekun nəticəyə gəlməyə problem yaradırdı. Cənab Prezidentin əvvəlcədən elan etdiyi bir fikir, hesab edirəm ki, bu fikir ayrılığının aradan qaldırılmasına köməklik etdi. Fikir ondan ibarət idi ki, biz bütün qarşılıqlı ittihamları bir yana qoymalıyıq və bəşəriyyətin xilası naminə iqlim dəyişiklikləri ilə əlaqədar ümumi mövqeyimizi birləşdirməliyik və maliyyə ilə bağlı konsensus əldə etməliyik.

Təsəvvür edin, bilirsiniz ki, 2015-ci ildə Paris sazişinə əsasən maksimum maliyyə hədəfi 100 milyard ABŞ dolları maliyyələşdirilmişdi. Bu hədəfə yalnız 7 ildən sonra, 2022-ci ildə çatmaq mümkün olmuşdu. Azərbaycan isə çox böyük bir hədəf müəyyənləşdirdi və nəticədə 300 milyard dollar hər il inkişaf etməkdə olan ölkələrə maliyyə yardımı ilə bağlı öhdəlik götürüldü.

İkinci ən mühüm məsələ isə karbon bazarında uzun müddət davam edən Paris sazişinin 6-cı maddəsinin razılaşdırılması oldu. Hesab edirəm, hər iki məqam ondan xəbər verir ki, Azərbaycanın məhz cənab Prezidentin liderliyi sayəsində üzərinə götürdüyü bu qlobal missiya uğurla başa çatdı. Düşünürük ki, hələ qarşıda bir il var, Azərbaycanın sədrliyi dövründə digər məsələlər, digər təşəbbüslər qəbul olundu və bu, Bakı təşəbbüsləri və digər sənədlər birbaşa Bakının adı ilə bağlı oldu. Bu öhdəliyin irəli aparılmasında və icra olunmasında Azərbaycan öz sözünü bundan sonra da deyəcəkdir.

**Sədrlik edən.** Sağ olun. Bəxtiyar Əliyev. Buyurun.

**Bəxtiyar Əliyev.** Hörmətli xanım sədr, hörmətli depu-

tatlar. Mən dünən Ağdamda seçicilərlə görüşlər keçirdim və bu görüşlərdə səsləndirilən fikirləri və aldığım təəssüratı sizinlə bölüşmək istərdim.

Bilirsiniz ki, hələ Ulu Öndər Heydər Əliyev keçmiş məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üçün neft gəlirlərindən əldə edilmiş vəsaitin ilk istifadəsinin məhz məcburi köçkünlərin sosial rifahının yaxşılaşdırılmasına sərf edilməsi ilə bağlı qərar qəbul etmişdi. Quzanlı-1 qəsəbəsində görüş zamanı seçicilərimiz xahiş etdilər ki, bir daha möhtərəm cənab Prezidentə onların dərin minnətdarlığını çatdıraq. O qəsəbənin açılışı, o gözəl evlərin təqdimatı zamanı cənab Prezident bir daha əmin etmişdi ki, "biz öz torpaqlarımızı Ermənistanın işğalından azad edəcəyik, bundan daha gözəl kəndlərimizi, şəhərlərimizi tikəcəyik və siz o yerlərə qayıdacaqsınız".

İnsanlar çox böyük, yüksək əhvali-ruhiyyə ilə artıq istifadəyə verilməyə hazır olan 3 kəndə köçməyə hazırlaşırlar. Onlar dövlət vəsaiti hesabına "ağıllı kənd" konsepsiyası əsasında hər bir təminatla tikilib, pulsuz olaraq keçmiş məcburi köçkünlərin istifadəsinə veriləcəkdir.

Təsəvvür edək ki, 2001-ci ildə Azərbaycanın dövlət büdcəsi, ümumilikdə, təqribən 1,2 milyard manat idisə, bu gün artıq bizim büdcə xərclərimiz 41 milyard manatdır. Bu, ölkədə görülən işlərin, yüksək iqtisadi inkişafın, nailiyyətin nəticəsidir. Bu vəsaitdən təqribən 16 milyard manat təkcə əhalinin əməkhaqqına və sosial müdafiəsinə yönəldilir. Müqayisədə çox açıq-aydın görünür ki, 2001-ci ildə, bütövlükdə, 1,2 milyard olan dövlət büdcəsinin bu gün 16 milyarddan çox vəsaiti təkcə əhalinin sosial müdafiəsinə yönəldir. Bu da bizim yenidən qurulan Qarabağ və Şərqi Zəngəzurdur, yeni iş yerlərinin açılmasıdır. Bütün

bunlar, əlbəttə ki, xalq tərəfindən yüksək qiymətləndirilir. Bizə qibtə ilə yanaşan, Azərbaycanın artan nüfuzuna xələl gətirmək istəyən, – hətta belə bir ifadə var idi, "sapı özümüzdən olan baltalar", – xaricdə oturub düşmənlərin dəyirmanına su tökənlər hərdən təəssüb doğurur ki, görəsən bunlar da bu millətdən, bu xalqdan hər hansısa bir...

**Sədrlik edən.** Cümlənizi bitirdiniz?

**Bəxtiyar Əliyev.** Əlbəttə, həmin o qüvvələr bilavasitə Azərbaycanın əleyhinə işləyən qüvvələrlə həmrəy olaraq bu pozucu siyasətə qoşulurlar və bu, seçicilərdə, hər birimizdə böyük hiddət doğurur. Əlbəttə, düşünürəm ki, bütün bunların hamısına zamanında, vaxtında qiymət veriləcəkdir. Necə ki, bu gün Azərbaycan xalqına qarşı soyqırım törətmiş erməni cinayətkarlar öz mühakiməsini gözləyir, həmin insanlar da gələcəkdə bu pozucu hərəkətlərinə görə layiqli cavablarını alacaqlar. Azərbaycanı bu yoldan heç nə çəkindirə bilməz, Azərbaycan bu istiqamətdə də uğurla irəliyə gedəcək. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən hamıya təşəkkürümü bildirirəm. Ayın 25-də keçirilən iclasın açılışı zamanı mən COP haqqında qısa bir məlumat verdim və öz giriş sözümdə dedim ki, COP29 haqqında hələ çox danışılacaq. Çox şadam ki, COP29 haqqında bu gün burada yenə də söz açıldı və ölkəmizin nailiyyətləri haqqında danışıldı. Təbii ki, bütün bu mövzuların bizim 3 dəqiqəlik çıxışlarımızda, yəni cari məsələlərin müzakirəsində səslənməsi çox düzgündür və faydalıdır.

İndi isə, hörmətli həmkarlar, biz gündəliyin məsələlərinə keçirik. Bilirsiniz, gündəlikdə 15 məsələmiz var. Qeyd edim ki, gündəliyin ilk 3 məsələsi beynəlxalq sənədlərin təsdiq edilməsi haqqında qanun layihələridir. Odur

ki, bu qanun layihələri müvafiq Konstitusiya qanununun tələbinə əsasən bir oxunuşda baxılıb qəbul ediləcək. 1-ci məsələ "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında 14 sentyabr 2017-ci il tarixli Sazişə İkinci Qoşma"nın qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılıb. Mən indi komitənin sədri hörmətli Sadiq Qurbanova söz vermək istəyirəm. Sadiq müəllim, buyurun.

**Sadiq Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun. Dəyərli Sahibə xanım, hörmətli millət vəkilləri. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən çox mühüm iqtisadi əhəmiyyəti ilə yanaşı, bir o qədər də siyasi yükə malik bir sənəd – "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında 14 sentyabr 2017-ci il tarixli Sazişə İkinci Qoşmanın qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə" qanun layihəsi təqdim edilmişdir.

Bu sənəd 1994-cü il sentyabrın 20-də imzalanmış və Ulu Öndərin misilsiz xidmətləri sayəsində gerçəkləşən "Əsrin müqaviləsi" ilə başlanan işlərin davamı olaraq, həmin müqavilə çərçivəsində formalaşmış beynəlxalq konsorsiumun əsas iştirakçıları ilə birlikdə yaşıl enerjiyə keçid enerjisi olan təbii qazın hasilatı və pay bölgüsü ilə bağlı məsələləri əhatə edir.

İqtisadi müstəqilliyimizin təmin olunmasında, bütöv-

lükdə, dövlətçiliyimizin möhkəmlənməsində bu sazişin tarixi rolu hər birimizə məlumdur. Xüsusi ilə qeyd etmək istəyirəm ki, həmin sazişin əsas iştirakçı şirkətləri, başda BP olmaqla, təmsil etdikləri ölkələrin Azərbaycanla münasibətlərinə mühüm töhfələr vermiş, geosiyasi baxımdan ölkəmizin dəstəkçisinə çevrilmişlər.

Qısaca olaraq bu saziş haqqında onu bildirmək istəyirəm ki, 1994-cü il sentyabrın 20-də sazişin imzalanmasından böyük dövr keçmişdir. Həmin sazişə yenidən baxılaraq 2017-ci il sentyabrın 14-də SOCAR-la tərəfdaş şirkətlər arasında onun uzadılması barədə qərar qəbul edilmişdir. Tərəfdaş şirkətlər sırasında Azərbaycan "ACG" Limited, BP, Şevron, Ekson, İtoçu, Türkiye Petrolleri və digər şirkətlər vardır.

Bu sazişin 15.2-ci maddəsində qeyd edilirdi ki, SOCAR Azəri, Çıraq və Günəşli yataqlarında hasilatın pay bölgüsü sazişi üzrə bütün sərbəst təbii qaz yataqlarının kəşfiyyatını və işlənməsini həyata keçirmək üzrə müstəsna hüquqa malikdir. Əgər SOCAR hər hansı üçüncü tərəflər və ya hər hansı podratçı tərəflə sərbəst təbii qaz yataqlarının işlənməsini qərara alarsa, o zaman tərəflər bu cür işlənmə üçün şərtləri və müddəaları, müddətləri razılaşdırmalıdır. Hazırkı razılaşma məhz bu çərçivədə hazırlanıb və 2024-cü il avqustun 1-də tərəflər arasında sazişə ikinci qoşma olaraq imzalanmışdır.

Beləliklə, qaz sazişi olaraq bu layihə Azəri–Çıraq–Günəşli yataqlarında hasilatın pay bölgüsü sazişinin kontrakt sahəsinin coğrafi hüdudları daxilində yerləşən, lakin kontraktla əhatə olunmayan sərbəst təbii qaz yataqlarındakı hasil edilməmiş qaz və maye karbohidrogenlərin işlənməsini nəzərdə tutur. Burada xüsusi ilə diqqət yetirdi-

yimiz məqam ondan ibarətdir ki, tərəflər bu layihənin mövcud hasilatın pay bölgüsü sazişi əsasında həyata keçirilən layihə olaraq, onun əməliyyat prosesləri ilə bağlılığını nəzərə alaraq qərara alırlar, həmin layihə mövcud podratçı şirkətlərlə birgə işlənsin.

İkinci qoşma hazırlanarkən digər qaz layihələri sazişlərində, yəni Abşeron və Şahdənizdə olan sazişlərində də kommersiya və fiskal şərtlər əsas götürülüb, eləcə də onların həyata keçirilməsinin müsbət nəticələrindən istifadə edilmişdir.

Sazişə görə podratçı qarşısında Çıraq, dərinsulu Günəşli yataqlarına, Azəri kontrakt sahəsinə aid olan qaz layları üzrə bir sıra öhdəliklər qoyulmuşdur. Belə ki, podratçı tərəflər müəyyən edilmiş müddətlər ərzində qiymətləndirmə aparmaq üçün qiymətləndirmə quyularının qazılması ilə birgə yekun investisiya qərarlarını qəbul etməli, marketinq işlərini aparmalı, vahid işlənmə proqramlarını hazırlayıb təsdiq üçün SOCAR-a təqdim etməlidirlər. Beləliklə, ilkin qazın hasilatının təmin edilməsi ilə bağlı müəyyən tədbirlər görülməlidir.

Podratçının üzərinə qoyulmuş öhdəliklər müqavilədə müəyyən edilmiş müddətlər ərzində yerinə yetirilmədiyi, xüsusi ilə podratçı müəyyən yataqlarla bağlı müsbət investisiya qərarı qəbul etmədiyi təqdirdə, SOCAR birtərəfli şəkildə podratçıdan həmin laylardan imtina etməsini, geri qaytarılmasını tələb etmək hüququnu özündə saxlayır.

Qeyd edim ki, Çıraq, dərinsulu Günəşli yataqları üzrə qiymətləndirmə quyusundan hasil ediləcək qaz ancaq SOCAR-a satılacaqdır. Digər laylar və yataqlar üzrə investisiya qərarları sonrakı illərdə, yəni ikinci qoşmada qeyd olunan müddətlərdə veriləcəkdir.

Sonda qeyd edim ki, bu qanunun qəbulu ilə biz sənədin

hüquqi statusunu müəyyən edirik. Azərbaycanın iqtisadi inkişafına öz töhfəmizi göstəririk. Deputat həmkarlarımı Azərbaycan üçün mühüm olan belə bir sazişə müsbət səs verməyə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Müzakirəyə keçirik. Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Mən çox qısa konseptual bir məqama diqqət çəkmək istəyirəm. Neft və qaz, bir qayda olaraq, mənsub olduqları, yerləşdikləri coğrafiyalara adətən bədbəxtliklər gətirir, o cümlədən əlverişli coğrafiyalar da işğalçıların, təcavüzkarların həmişə diqqətini cəlb edir.

Azərbaycan da tarixən belə acılar yaşayıb. Amma tariximizdə ilk dəfə məhz Ulu Öndər siyasətinə əsaslanaraq möhtərəm cənab Prezident nefti, qazı insan kapitalına, sözün əsl mənasında, təbii sərvətdən milli sərvətə çevirə bilib, inkişafın, tərəqqinin təməlində dayanan nüanslardan birinə çevrilib.

Eyni zamanda, möhtərəm cənab Prezident bizim coğrafiyanı tariximizdə ilk dəfə olaraq bizim dividendimizə çevirə bilib. Bu mənada mən hesab edirəm ki, bu sənəd birmənalı şəkildə çox əhəmiyyətli olması ilə yanaşı, Heydər Əliyev siyasətinin, cənab Prezidentin siyasətinin, gücümüzün, imkanlarımızın təntənəsidir və bu mənada birmənalı şəkildə dəstəklənməlidir. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Bəhruz müəllim. Vüqar Rəhimzadə. Vüqar müəllim, buyurun.

**Vüqar Rəhimzadə.** Təşəkkür edirəm, xanım sədr. Bu gün Azərbaycan iqtisadiyyatına, Azərbaycanın, ümumiyyətlə, dünya iqtisadi siyasətinə verdiyi töhfələrdə mühüm əhəmiyyət kəsb edən növbəti iqtisadi bir layihənin,

iqtisadi şazişin imzalanması ilə bağlı müzakirələr gedir. Hesab edirəm ki, Azəri, Çıraq, Günəşli yataqları ilə bağlı bu sənəd təkcə Azərbaycan, region iqtisadiyyatı üçün deyil, dünya iqtisadiyyatında mühüm əhəmiyyət kəsb edən çox vacib sənədlərdən biridir.

Bəri başdan qeyd edim, mən komitə iclasında fikirlərimi bildirmişəm və bu gün də təkrarən ifadə etmək istəyirəm ki, "Əsrin müqaviləsi"nin imzalandığı dövr, zaman Azərbaycanda çox ağır bir dövrə təsadüf edirdi. Ondan əvvəlki illərdə, ümumiyyətlə, 1990-cı illərin əvvəllərini Azərbaycan iqtisadiyyatının çox tənəzzül, ağır, məşəqqətli bir dövrü hesab etmək olardı.

"Əsrin müqaviləsi" 1994-cü ilin 20 sentyabrında Azərbaycan iqtisadiyyatının təməl prinsiplərini müəyyən etdi. İkinci əsrin müqaviləsi 2017-ci ildə Heydər Əliyev Mərkəzində imzalanmış bu müqavilə Azərbaycanın milli maraqlarının qorunmasında, iqtisadi imkanlarının genişlənməsində çox müstəsna rola malik olan bir sənəddir. Bu o sənədə əlavə olunur.

Bizim neft istehsal edən bir ölkə olduğumuzu bütün dünya bilir. Bütün dünyada biz neft ölkəsi kimi tanındıq. Amma bu gün, eyni zamanda, Azərbaycan həm də qaz istehsalçısı kimi dünyada öz mövqeyini günü-gündən möhkəmləndirir, günü-gündən yüksək, dinamik xətlə Azərbaycan iqtisadiyyatına mühüm töhfələr verir.

Ulu Öndərimizin rəhbərliyi ilə 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" bu gün möhtərəm cənab Prezidentimizin rəhbərliyi ilə müasir çağırışlara uyğun olaraq, Azərbaycan iqtisadiyyatına mühüm töhfələr verməkdədir. Bu gün SOCAR təkcə Azərbaycanda, regionda iqtisadi imkanların genişlənməsi ilə bağlı deyil, eyni zamanda,

dünyada çox müasir tələblərə cavab verən müasir bir iqtisadi qurum kimi öz sözünü deməkdədir.

Hesab edirəm ki, imzalanacaq, təsdiq olunacaq bu layihə Azərbaycanın, ümumiyyətlə, gələcək iqtisadi bazasının möhkəmlənməsində müstəsna rola malik olacaqdır, müstəsna töhfələr verəcəkdir. Ümumiyyətlə, Ulu Öndərimiz qeyd edirdi ki, "iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". O baxımdan hesab edirəm ki, iqtisadiyyatımızın daha da güclənməsində, ölkəmizin daha da qüdrətlənməsində, dünyanın iqtisadi, siyasi proseslərində daha mühüm töhfələr verməsində müstəsna rola malik olan bir sənədə bu gün artıq biz öz münasibətimizi bildirəcəyik. Mən bu sənədin qəbul olunmasının birmənalı şəkildə tərəfdarıyam və həmkarlarımdam da xahiş edirəm ki, bax, bu sənədə öz müsbət münasibətlərini bildirsinlər. Çox təşəkkür edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Vüqar müəllim. Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə**. Təşəkkür edirəm, xanım sədr. Layihə ilə tanış oldum və bu layihəyə səs verəcəyəm. Layihənin Azərbaycanın milli maraqlarına cavab verdiyi fikrindəyəm. Belə sazişlərin imzalanması Azərbaycana xarici investisiyanın cəlb edilməsində, müasir texnika və texnologiyanın Azərbaycana gətirilməsində, əməkdaşlığımızın güclənməsində, dünya enerji təhlükəsizliyinin təmin edilməsində, Azərbaycanın rolunun artmasında mühüm rol oynayır. Azərbaycanın neft ehtiyatları dünya neft ehtiyatının cəmi 0,7 faizini təşkil edir, amma buna baxmayaraq, bu gün Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu əvəzsizdir. Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi ilə vaxtı ilə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin çəkilməsi

və Azərbaycan neftinin müstəqil surətdə dünya bazarına çıxarılması Azərbaycanın müstəqilliyini möhkəmləndirdi, dünya birliyində nüfuzunu artırdı, Azərbaycanı güclü, özünün müstəqilliyini qorumağı bacaran bir dövlət kimi bir daha təsdiq etdi. Hesab edirəm ki, bu layihə də Azərbaycanın qarşısına qoyduğu dövlətçiliyimizə xidmət strateji məqsədlərini həyata keçirilməsinə tətbiq ediləcək.

Vaxtı ilə 1993-cü ildə Azərbaycan büdcəsinə gəlirlərin 96 faizi neft-qaz satışından daxil olurdu. Amma müstəqilliyimiz dövründə həm neft sənayesinin modernləşməsinə, həm də qeyri-neft sektorunun inkişafına göstərilən diqqət ona gətirib çıxardı ki, artıq büdcəmizdə neftdən gələn gəlirlər 48 faizə düşüb və bu, ildən-ilə də davam edəcək. Gələn gəlirlər məqsədli surətdə istifadə edilir.

1999-cu ildə Ulu Öndər tərəfindən Dövlət Neft Fondunun yaradılması, Dövlət Neft Fonduna yığılan vəsaitin strateji layihələrə tətbiq edilməsi, məcburi köçkünlər üçün şəhərciklərin salınması, eyni zamanda, ehtiyac olduqda büdcəyə transfer edilməsi Azərbaycanın bir sosial dövlət kimi formalaşmasına çox böyük kömək etdi. Biz ildən-ilə artan büdcəmizdə sosial sahəyə ayrılan vəsaitin artıdığını görürük. Biz əmək haqlarının, pensiyaların tədricən artdığını görürük və bu günlərdə bir neçə gün komitələrdə, 3 gün isə intensiv surətdə Milli Məclisdə büdcə müzakirələri davam etdi. Biz hökumətin sosial sahəyə necə diqqət etdiyini görürük və bu, həmişə də belə olacaq. Dövlət Sosial Müdafiə Fondunun büdcəsinə gələn il üçün 10 faizə qədər artımın edilməsi, 100 minə qədər insanın özünüməşğulluq proqramı ilə təmin edilməsi, bunun hamısı göstərir ki, insanların sosial rifahı, həssas təbəqəyə diqqətin artırılması diqqətdə olan məsələlərdir.

İldən-ilə artıq öz-özünü maliyyələşdirən şəhər və rayonların sayı da artmaqdadır. Bütün bunlar isə, əlbəttə ki, dövlətimizin iqtisadiyyatının qüdrətlənməsinə, müstəqil dövlət kimi öz problemlərini özü həll etməsinə gətirib çıxarır.

İşğaldan azad olunan ərazilərdə böyük işlər görülür və Azərbaycan bu işləri öz gücünə edir. Baxmayaraq ki, beynəlxalq təşkilatlar vaxtı ilə Azərbaycana böyük yardımlar vəd edirdi, biz bunu görmürük. Demək olar ki, hər gün bu və ya digər şəhər və rayonumuza keçmiş məcburi köçkünlərin qayıtdığını görürük. Onlar işlə təmin edilirlər, məktəblər xəstəxanalar tikilir, yeni infrastruktur salınır. Qarabağ Universiteti kimi yeni bir universitetin yaranması və onun müasir universitet səviyyəsinə çatdırmaq üçün dövlət tərəfindən dəstək göstərilməsi də bu qəbildən olan məsələdir. Neft sazişləri Azərbaycana investisiya gəlməsində, qeyri-neft sektorunun inkişafında, insanların rifahının artmasında böyük rol oyanır. Hesab edirəm ki, bu saziş də o istiqamətdə öz töhfəsini verəcəkdir.

**Sədrlik edən.** Sağ olun. Bəxtiyar Əliyev. Buyurun.

**Bəxtiyar Əliyev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Şübhəsiz ki, bu gün müzakirə etdiyimiz bu saziş olduqca əhəmiyyətli bir sənəddir və onun qəbul edilməsinə hər birimiz səs verəcəyik. Amma bu sazişin elə özünün müzakirəsi zamanı ikinci qoşmanın qəbul edilməsi ilə bağlı sənədin hazırlanması bir daha onu göstərir ki, Azərbaycanda istər neft, istərsə də qaz yataqlarında kifayət qədər ehtiyatlar var. Hələ bundan sonra 100 il də insanlar, bəşəriyyət bundan yararlanacaqdır və insanların yaxşı yaşaması üçün də bu təbii qaynaqlardan istifadə olunacaqdır.

Bir neçə il bundan əvvəl BP ilə imzalanmış sazişin növ-

bəti 50 ilə uzadılması da bir daha onu göstərdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasətdə əsas məqsəd ölkə əhalisinin sosial rifahının gələcəkdə də yaxşılaşdırılması üçün iqtisadi əsasların yaradılmasından ibarətdir. Həmin sazişin 50 il də uzadılması ilə bundan sonra 50 il də Azərbaycana kifayət qədər gəlirlərin gəlməsini və əhalinin daha yaxşı yaşamasını və ölkənin təhlükəsizliyini təmin etmək üçün kifayət qədər maliyyə vəsaiti əldə ediləcəkdir.

Amma çox maraqlı bir məsələ də var. Bu günlərdə dünyada, ümumiyyətlə, ən böyük hadisələrdən biri olan COP29-un keçirilməsi bir daha onu göstərdi ki, Azərbaycan dövləti tərəfindən çox düzgün və bəşəriyyət üçün əhəmiyyətli olan siyasət həyata keçirilir. Bundan əvvəl Azərbaycan tərəfi, əlbəttə, multikulturalizmi bir siyasət kimi bəyan etmişdi və göstərmişdi ki, bu, təkcə Azərbaycan dövlətinin siyasəti deyil, Azərbaycanda bu, eyni zamanda, bizim həyat tərzimizdir. Baxmayaraq, həmin dövrdə Avropanın aparıcı dövlətlərinin liderləri bəyan etdilər ki, Avropada multikulturalizm böhran yaşayır və o, fiaskoya uğramışdır. Bunun nəticəsi olaraq biz görürük ki, onların Şərqdə və Orta Şərqdə yaratdıqları müharibələrin nəticəsində insanlar öz rahat ev-eşiklərini tərk edərək o münaqişə ocaqlarından o ölkələrə üz tutanda çox az bir qisim, 100 min miqrantı və qaçqını qəbul etdikdə onlar çox böyük sosial böhranla üzləşdilər. Onlar buna hazır olmadıqlarını bəyan etdilər və bu gün ayrı-seçkilik siyasətini aydın surətdə göstərirlər. O dövlətlərin törətdikləri müharibələr nəticəsində həmin yerlərə üz tutan insanları o ölkələrə buraxmırlar. Onları dənizdə o qayıqlarda boğurlar, çox pis şəraitdə saxlayırlar, onlara qarşı in-

sanlığa yaraşmayan hərəkətlər də törədirlər. Azərbaycan vaxtı ilə insan haqlarının qorunması ilə bağlı bu məsələlərə də diqqəti cəlb etmişdi.

COP29 sammitində Azərbaycan Prezidenti həm sammitin açılışında, həm də inkişaf etməkdə olan ada ölkələrinin sammitindəki çıxışında diqqəti bir daha bu məsələlərə çəkdi və göstərdi ki, bu gün Azərbaycan karbon emmisiyasının harada isə sıfır neçə faizinin məsuliyyətini daşıyır. Amma inkişaf etmiş ölkələr bunun 75 faizinə məsuliyyət daşıyırlar. Bu ölkələrdən nefti, qazı alan onlar, öz fabrik zavodlarını inkişaf etdirən onlar, böyük gəlir götürən onlar, təyyarələri, avtomobilləri istehsal edən onlar, atmosferi çirkləndirən də onlar, – onların da hamısı həmin yanacaqla işləyir, – amma nədənsə onlar bunu tənqid etmir, təyyarə, raket istehsalını, neftlə, qazla işləyən avtomobillərin istehsalını azaltmaqdan danışmırlar, onların istehsalını daha da genişləndirirlər, xarici ölkələrə ixrac edirlər və hətta Çinin elektromobillərinin Avropaya və dünya bazarına çıxmasına mane olmaq istəyirlər və özləri də ətraf mühitin qorunmasından gen-bol danışırlar. Əlbəttə, bu, siyasi riyakarlıqdır, bu, ciddi siyasi məsuliyyətsizlikdir.

Hesab edirəm, bu gün Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin ən uğurlu nəticələrindən biri də ondan ibarətdir ki, COP29-da indiyə qədər əldə olunmayan bir tarixi nailiyyət əldə edildi. Tərəfdaş dövlətlərin müəyyən bir razılığa gəlməsi və 300 milyard ABŞ dolları vəsaitin ayrılması və bundan sonra artırılması məhz Azərbaycan tərəfinin səyləri nəticəsində mümkün oldu və razılıq əldə edildi. Hesab edirəm ki, bu saziş də bilavasitə məhz insanların yaxşı yaşamasına xidmət edən bir işin əsasını qoyur

və bu siyasət də davam etdirilməlidir. Bu gün Azərbaycanın təcrübəsi isə o ölkələr üçün nümunə olmalıdır və onlar da bundan nəticə çıxarmalıdırlar. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, müzakirələr bitdi, mən məsələni səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Sağ olun, qəbul edildi.

Gündəliyin 2-ci məsələsi “Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında diplomatik, xüsusi və xidməti pasport sahiblərinin qısamüddətli vizadan qarşılıqlı azad edilməsi haqqında Anlaşma Memorandumu”dur. Layihəyə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, buyurun.

**Səməd Seyidov**, *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, islam dünyasının 2 müqəddəs məkanının yerləşdiyi və islam dünyasında böyük nüfuza malik olan ölkə ilə bu gün biz

həddindən artıq vacib bir memorandumu müzakirə edəcəyik. İslam dünyasında, Yaxın Şərqdə Səudiyyə Ərəbistanı həlledici səsə, həlledici mövqeyə malik olan dövlətlərdən biridir. Bu gün Azərbaycan bu memorandumu gündəlikdə müzakirəyə çıxararaq, imzalayaraq, təsdiq edərək Azərbaycanın islam dünyasında nə dərəcədə yüksək səviyyədə əlaqələrinin olmasını birbaşa sübut edir. Bu gün biz elə bir addım atırıq ki, bizim həm diplomatik, həm xüsusi, həm də xidməti pasportların sahiblərinin uzun müddətə Səudiyyə Ərəbistana vizasız gedib-gəlməsinə imkan yaradılır. Sazişə diqqətlə baxsanız, görəcəksiniz ki, sazişin içərisində çox vacib bir məqam əksini tapmışdır, hər bir 180 günün 90 günü ərzində bu pasportların hər bir sahibi Səudiyyə Ərəbistanına sərbəst gedib orada qala bilər. 90 gündən yuxarı isə, təbii, başqa sənədlər tələb olunur. Biz hesab edirik ki, bu, çox vacib bir məsələdir.

Bununla yanaşı, bir məqamı da sizin diqqətinizə çatdırmaq istəyirəm. Bu gün Səudiyyə Ərəbistanı ilə əlaqələrimiz bütün sahələrdə inkişaf edir və baxmayaraq ki, Səudiyyə Ərəbistanı da, Azərbaycan da dünyaya neft-qazla bağlı tanınan ölkələrdir. Ancaq biz yaşıl enerjinin inkişafında nümunəvi bir əməkdaşlıq etməyə başlamışıq. Bu da öz-özlüyündə çox vacibdir və bəlkə də bu əməkdaşlığın fəlsəfəsi bu sənədin içərisində öz mənasını və öz məntiqini tapır.

Mənə müraciət edən bəzi həmkarlarımız, həm də sazişlə tanış olmaq istəyən insanlarımız soruşurlar, – mən heç də təsadüfən demədim ki, Səudiyyə Ərəbistanı iki müqəddəs məkanın yerləşdiyi bir ölkədir, – yəni həmin pasportların sahiblərinə həcc və ümrə səfərlərinə bu saziş əsasında getmək mümkün olacaqmı? Burada sazişdə

birbaşa istinad olunub ki, buna ayrıca viza lazımdır. Bununla bağlı müzakirələr getmişdir və hesab edirəm, tamamilə düzgündür ki, həcc və ümrə səfərlərinə ayrıca sənədlər lazımdır. Ona görə ki, diplomatik, xidməti və xüsusi pasportla işçi səfərlər həyata keçirilir. Əlaqələrin genişləndirilməsi, müzakirələr təşkil olunur. Bütün başqa səfərlər isə ümumvətəndaş paportu ilə və xüsusi viza ilə tələb olunan bir məsələdir. Ümumiyyətlə, komitəmizdə bu sənəd müzakirə olunanda hamı yekdilliklə bunun təsdiq olunmasına tərəfdar çıxmışdır və mən də həmkarlarımdan bu sənədin təsdiq olunmasını xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Müzakirəyə keçirik, yazılanlar var. Rizvan Nəbiyev. Buyurun.

**Rizvan Nəbiyev**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli mətbuat nümayəndələri. Səməd müəllim saziş haqqında ətraflı məlumat verdi. Amma hesab edirəm ki, Səudiyyə Ərəbistanı ilə dövlətimiz arasında olan münasibətlərin xarakterinə, uzun illər Səudiyyə Ərəbistanının Azərbaycanın haqlı mövqeyinə verdiyi dəstəyə görə bu ali orqanda, bizim Milli Məclisdə münasibətlərin xarakteri haqqında bir neçə kəlməni sizlərin diqqətinə çatdırım.

Səudiyyə Ərəbistanı Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında imzalanan Saziş həmçinin hökumətimizin viza məsələləri sahəsində şəffaflıq siyasətini, eləcə də ölkəmizin beynəlxalq birliyin üzvü olan dost dövlətlərlə münasibətlərin inkişafına verdiyi dəyəri göstərir. Bu gün ölkəmizlə Səudiyyə Ərəbistanı Krallığı arasında həm ikitərəfli səviyyədə, həm də çoxtərəfli müstəvidə sıx əməkdaşlıq həyata keçirilir. Dost və qardaş Səudiyyə Ərəbistanı ilə münasibətlərimizin əsalarının formalaşdırıl-

masında Ümummilli Lider Heydər Əliyevin 30 il əvvəl 1994-cü ildə bu ölkəyə etdiyi səfər, ölkənin krallığı ilə əldə etdiyi razılaşmalar və eyni zamanda, hərtərəfli münasibətlərə dair imzalanan baş saziş çox mühüm rol oynadı. Məhz bu təməl üzərində qurulan və son 30 il ərzində dövlətlərimiz arasında inkişaf edən əlaqələr Xarici İşlər Nazirliyi tərəfindən strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş münasibətlər kimi dəyərləndirilir. Hesab edirəm ki, bu strateji tərəfdaşlığın ikitərəfli yazılı sənəddə də hüquqi baxımdan təsbit olunması bu günün həm aktual məsələsi, həm də zərurətidir. Bu qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinin ən bariz göstəricilərindən biri Səudiyyə hökumətinin torpaqlarımızın beynəlxalq hüquqa zidd işğal altında olduğu bir vaxtda diplomatik müstəvidə göstərdiyi dəstək olmuşdur.

Bir faktı vurğulamaq istərdim ki, Azərbaycan Respublikası 2023-cü ilin sentyabrında suverenliyini tam bərpa edənədək Səudiyyə Ərəbistanı Ermənistanla diplomatik münasibətlər qurmamışdır. Bu illər ərzində həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə, o cümlədən BMT və onun ixtisaslaşmış qurumları, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı və digər beynəlxalq platformalarda göstərilən qarşılıqlı dəstək yüksək qiymətləndirilməlidir. Əlaqələrimizin müsbət dinamika ilə inkişafı, ölkələrimiz arasında yüksək səviyyədə siyasi dialoq bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bir faktı diqqətinizə çatdırmaq istəyirəm ki, təkcə 2022–2023-cü illər ərzində Səudiyyə Ərəbistanı və Azərbaycan arasında müxtəlif səviyyələrdə qarşılıqlı olaraq 16 səfər həyata keçirilmişdir.

Ölkələrimizin arasında əməkdaşlığın inkişafında par-

lamentlərarası əlaqələr da vacib yer tutur. Hesab edirəm, bu yerdə mən qeyd etməliyəm ki, xanım sədr, Sizin ötən illər ərzində ölkəmizdə səfərdə olan Səudiyyə Ərəbistanının çoxsaylı nümayəndə heyətləri ilə, özü də müxtəlif dövlət qurumlarından olan nümayəndə heyətlərinin rəhbərləri ilə Milli Məclisdə apardığımız görüşlər və danışıqlar da buna əyani misaldır.

Postmünaqişə dövründə də Səudiyyə Ərəbistanın dost münasibəti özünü faktlarda göstərir. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində minatəmizləmə fəaliyyəti üçün ayrılan 3 milyon ABŞ dolları məbləğində dəstək minnətdarlıqla qeyd edilməli və digər dövlətlərə də örnək kimi göstərilməlidir. Səudiyyə Ərəbistanının investisiya naziri Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər edən ilk əcnəbi hökumət üzvlərindən olub və orada "yaşıl energetika", kənd təsərrüfatı, ekoturizm kimi sahələrə sərmayə yatırılmasına maraqlı olduqlarını bildirmişdir. İki ölkə arasında iqtisadi əməkdaşlıq komissiyası fəaliyyət göstərir və müxtəlif layihələr müzakirə olunur.

Hörmətli həmkarlar, sonda fikirlərimi bu ölkədə yerləşən və Səməd müəllimin də qeyd etdiyi bir məsələ ilə, iki müqəddəs şəhərin islam dini üçün malik olduğu dəyərlərə həm Ümummilli Liderimizin, həm də cənab Prezidentin göstərdiyi ehtiramı vurğulamaqla yekunlaşdırmaq istərdim. Belə ki, həm Ümummilli Lider, həm də cənab Prezident Səudiyyə Ərəbistanına etdikləri səfərlər çərçivəsində Məkkə və Mədinə şəhərlərində olub, ümrə ayinini yerinə yetirib, Məhəmməd Peyğəmbərin qəbrini ziyarət ediblər. Yenə Allah qəbul etsin. Diqqətiniz üçün təşəkkür edirəm və qanun layihəsini dəstəkləyəcəyimi bildirirəm.

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov.

**Ceyhun Məmmədov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Bir az bundan əvvəl də qeyd olunduğu kimi, biz bu gün olduqca önəmli bir sənədə səs verəcəyik. Bu gün bu, həm də onun göstəricisidir ki, Azərbaycana olan diqqət, qayğı, etimad cənab Prezidentin rəhbərliyi ilə daha da artır və biz artıq görürük, Azərbaycan bir çox ölkələrlə viza məsələsində anlaşır və Azərbaycan vətəndaşları daha çox ölkələrə viza almadan səfər edirlər. Bu, həm də bizim xarici siyasətin uğurla həyata keçirildiyini göstərir.

Burada önəmli məsələlərdən biri də Səudiyyə Ərəbistanıdır. Səudiyyə Ərəbistanı, bir az bundan əvvəl qeyd olundu, azsaylı müsəlman ölkələrindəndir ki, hər zaman Qarabağla bağlı Azərbaycanın mövqeyini dəstəkləyib və Azərbaycanın yanında olub. Onu xüsusi qeyd etmək lazımdır ki, dəfələrcə Ermənistanın cəhdlərinə baxmayaraq, münaqişə dövründə bu ölkə ilə Ermənistan arasında heç bir diplomatik münasibət olmayıb və onlar bütün platformalarda da hər zaman Azərbaycana dəstəklərini ifadə ediblər. Eyni zamanda, həm Ulu Öndərin dövründə, həm də cənab Prezidentin bu gün həmin istiqamətdə apardığı siyasət davam edir və bura qarşılıqlı səfərlər olub.

Eyni zamanda, burada başqa bir məsələ bizim bu gün Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti Azərbaycanda yaşıl enerji sahəsində əməkdaşlıq edir. Artıq şirkət burada fəaliyyətə başlayıb. Bu gün, eyni zamanda, Səudiyyə Ərəbistanı turizm, alternativ enerji sahəsində müxtəlif layihələri həyata keçirir. Onlar Azərbaycanla bu işlərin davam etdirilməsində də maraqlıdırlar.

Eyni zamanda, onu qeyd etmək lazımdır ki, bu gün

azərbaycanlı zəvvarların ən çox üz tutduqları, ən çox ziyarət etdikləri ölkələrdən biri də Səudiyyə Ərəbistanıdır. Bu da, ümumilikdə, vətəndaşlarımızın daha rahat getməsinə və bizim münasibətlərimizin daha da inkişaf etməsinə də öz töhfəsini verəcək.

Mən başqa bir məqamı da qeyd etmək istəyirəm ki, eyni zamanda, Səudiyyə Ərəbistanının Azərbaycandakı səfirliyi də bu istiqamətdə çox fəaldır. Xüsusi ilə Qarabağda, Şərqi Zəngəzurda keçirilən tədbirlərdə onlar fəal şəkildə iştirak edirlər.

Ümumilikdə, qeyd etdiyim kimi, bu bizim əlaqələrimizin daha da inkişafına və daha da güclənməsinə öz töhfəsini verəcək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sonuncu çıxış Məlahət İbrahimqızı. Buyurun.

**Məlahət İbrahimqızı.** Çox sağ olun, xanım sədr. Məndən öncə çıxış edən həmkarlarımızın fikirlərinə qoşuluram. Həqiqətən də, Səudiyyə Ərəbistanı dünyanın nadir ölkələrindəndir ki, orada viza hədsiz dərəcədə məhduddur. Onu demək istərdim ki, dünyada BMT-yə üzv olan 200-ə yaxın ölkədən ancaq 51-nə, – o da daimi deyil, müvəqqətidir, – diplomatik və xidməti pasportlara vizasız gedişə icazə verilir. Yəni çox az, çox nadir ölkələrə, bütövlükdə, 51 ölkəyə vizasız gediş-gəlişə icazə verilir. Eyni zamanda, 51 ölkənin də heç də hamısı müsəlman ölkələri deyil. Nəinki müsəlman ölkələri, Səudiyyə Ərəbistanı Ərəb Dövlətləri Liqasına daxil olan ölkələrin, yəni hətta qardaş ərəb dövlətlərinin belə hamısına diplomatik və yaxud xidməti pasportla vizasız gediş-gəlişə icazə vermir.

Bu, bir daha möhtərəm Prezidentimiz həm beynəlxalq aləmdə, həm də islam aləmindəki nüfuzunu göstərir. Xü-

susi qeyd etmək istərdim ki, bu, Ərəb Dövlətləri Liqasında da möhtərəm Prezidentimizin nüfuzunu göstərən bir nümunədir. Biz bilirik ki, Ərəb Dövlətləri Liqasının sonuncu Əlcəzairdə keçirilən Sammitinə möhtərəm Prezidentimiz xüsusi qonaq kimi dəvət olunmuşdu. Onun orada həm sammit çərçivəsində, həm də ayrıca, ikitərəfli görüşlərdə çıxışına çox böyük önəm vermişdilər. Ərəb dünyasının müxtəlif qəzetlərində, mətbuatında dərc olunmuşdu.

Mən həmkarlarımı bu qanun layihəsinə səs verməyə çağırıram. Həqiqətən də, bunu Azərbaycanın xarici siyasət, beynəlxalq əlaqələrində əldə olunan növbəti uğurlardan biri hesab edirəm. Çox sağ olun.

Bir də bir məqamı deməyi özümə borc bilirəm. Ümumiyyətlə, onların Xarici İşlər Nazirliyinin səhifəsində də var. Səudiyyə Ərəbistanına müsəlman ölkələrindən rəsmi ziyarətə, rəsmi səfərlərə gedən hər bir qonağa ayrıca ümrə ziyarəti də təklif edirlər, proqrama salırlar. Yəni Səməd müəllim dedi ki, bu viza ilə ümrə ziyarəti, həcc ziyarəti üçün viza fərqlidir. Amma bütövlükdə, müsəlman ölkələrindən rəsmi səfərlərə gedən bütün nümayəndə heyətinin proqramına ümrə ziyarəti salırlar.

Çox sağ olun. Təbrik edirəm. Qanun layihəsinə səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun, Məlahət xanım. Mesajınızı başa düşdük.

Hörmətli həmkarlar, qanun layihəsini mən səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
| Lehinə | 106 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, 3-cü məsələyə keçirik. Bu, "Azərbaycan Respublikası Hökuməti ilə İndoneziya Respublikası Hökuməti arasında diplomatik və xidməti pasportların sahiblərinin vizadan azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, bu layihəyə də Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılıb. Ona görə də, Səməd müəllim, mən yenə sözü Sizə verirəm. Buyurun.

**Səməd Seyidov.** Çox sağ olun. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. Doğrudan da, həmkarlarım çox geniş şəkildə Səudiyyə Ərəbistanı haqqında danışdılar. Çox təqdirəlayiq bir haldır və çox vacib, əhəmiyyətli bir məsələdir. Səudiyyə Ərəbistanı Yaxın Şərqdə yerləşən dost ölkədir və dediyim kimi, regionda və dünyada ən ali kürsülərdə Azərbaycanı müdafiə edən ölkələrdən biridir.

Uzaq Şərqdə isə islam dünyasının əhali nöqteyi-nəzərdən ən böyük ölkəsi İndoneziyadır. Bizim İndoneziya ilə münasibətlərimiz getdikcə inkişaf edir. Heç də təsadüfi deyil ki, – Sahibə xanım, burada Sizin imzaladığınız sənəd mənim stolumun üstündədir, – Asiya dövlətlərinin Parlament Assambleyası və Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin birgə fəaliyyətini təşkil edəcək plan stolumuzun üstündədir. Bu gün biz görürük ki, Azərbaycanın islam dünyasında nüfuzu, təsiri, rolu

getdikcə artır. Xüsusi ilə də kritik əhəmiyyətə malik olan dövlətlərlə, yəni Səudiyyə Ərəbistanı ilə, İndoneziya ilə bağlı bütün əlaqələr açılır.

Məlahət xanım çox düzgün qeyd etdi. Diplomatik pasportla, xüsusi pasportla getmək olar. Bu əlaqələrin yüksək səviyyədə təşkil olunması üçün səfərlərin sayı o qədər artıb ki, bu zərurət bu gün stolumuzun üstündədir. Ona görə Azərbaycan–İndoneziya münasibətlərini yeni mərhələyə yüksəltmək üçün, əlaqələrimizi daha yüksək şəkildə təqdim etmək üçün həm diplomatik, həm də xüsusi pasportlarla gediş-gəlişin vizadan azad olunması məsələsi gündəmə gəlib.

Düzdür, burada bir balaca fərq var. Misal üçün, Səudiyyə Ərəbistanı ilə 90 gün müddətindədirsə, sazişə baxsanız, görərsiniz ki, İndoneziya ilə 30 gün müddətindədir. Ancaq bu, böyük bir fərq etmir. Bizim rəsmi səfərlərimiz bir neçə gün də davam etsə, böyük əhəmiyyət kəsb edən səfərlərdir. Ona görə, təbii, komitəmizdə bu məsələ öz müsbət rəyini qazanmış və həmkarlardan müsbət fikirlərini bildirmələrini xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Hesab edirəm ki, Səudiyyə Ərəbistanı haqqında danışdığımız xoş sözləri, o cümlədən İndoneziya haqqında da danışmaq olar. Əhali sayına görə ən böyük İslam dövlətidir. Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü dəstəkləyən ölkələrdən biri olub.

Azərbaycana gələn İndoneziya rəsmiləri, parlament üzvləri Azərbaycanla dostluğa həmişə yüksək qiymət verirlər. Hesab edirəm ki, bu saziş münasibətlərimizin daha da dərinləşməsinə, o cümlədən iqtisadi sahədə, hu-

manitar sahədə əlaqələrin gücləndirilməsinə çox böyük dəstək ola biləcək. İki ölkə arasında əlaqələrin gücləndirilməsinin böyük potensialı var. Məsələn, mən çox istərdim ki, universitetlərimizdən birində İndoneziya mədəniyyət mərkəzi açılaydı, İndoneziya dili öyrəniləydi, İndoneziya ilə bağlı daha çox məlumatlar yayılaydı. Gələcəkdə çox arzu edərdim ki, həm Səudiyyə Ərəbistanı, həm də İndoneziya ilə, ümumiyyətlə, vizasız rejim tətbiq ediləydi. Sazişə səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Xarici Dillər Universitetində İndoneziya mərkəzi var və orada İndoneziya dili də tədris olunur. Səməd müəllim, o Sizin vaxtınızda idi, yoxsa? Buyurun.

**Səməd Seyidov.** Bəli, Sahibə xanım. Bu, çox vacib olan məsələdir. İndoneziya mərkəzi bu saat da Xarici Dillər Universitetində yüksək səviyyədə fəaliyyət göstərir. Hesab edirəm ki, bu da Azərbaycan–İndoneziya münasibətlərinə öz yüksək töhfəsini verməkdədir.

**Sədrlik edən.** Sağ olun. Hələ onu da deyim ki, bizim Beynəlxalq münasibətlər şöbəsində İndoneziyada təhsil alan bir xanımı da işə götürmüşük. Yəni İndoneziya dili bu gün bizim Beynəlxalq münasibətlər departamentində var. Bu da bizə lazımdır, çünki Səməd müəllimin dediyi kimi, bizim parlamentlər arasında çox güclü və dərin münasibətlər var.

Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, növbəti 9 məsələmiz üçüncü oxunuşda olan qanun layihələridir. Qeyd edim ki, bu 9-dan növbəti 2 məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə yaxındır.

Gündəliyin 4-cü məsələsi Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, 5-ci məsələsi isə "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında" və "Yaşıllıqların mühafizəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələridir. Mən təklif edirəm, həmişə olduğu kimi, biz qanun layihələrinin təqdimatlarını dinləyək.

4-cü məsələ barədə məlumatı bizə hörmətli Kamal müəllim verəcək. Kamal Cəfərov. Bu məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Kamal müəllim, buyurun.

**Kamal Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Qanun layihəsində hər hansı bir dəyişiklik olmadığı üçün, olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Kamal müəllim. 5-ci məsələyə Aqrar siyasət komitəsində baxılıb. Tahir müəllim, xahiş edirəm, məlumat verin.

**Tahir Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin*

*sədri.*

Hörmətli sədr, adları çəkilən qanunlarda edilmiş dəyişikliklərə ikinci oxunuş zamanı deputat həmkarlarım heç bir təklif bildirmədilər. Ona görə səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, hər iki qanun layihəsinə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində də baxılıb. Mən indi komitənin sədri Sadiq müəllimə söz verirəm. Sadiq müəllim, buyurun.

**Sadiq Qurbanov.** Çox sağ olun, dəyərli Sahibə xanım. Komitənin hər iki layihə üzrə rəyi müsbətdir. Nəzərə almağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihələrini üçüncü oxunuşda bir-bir səsə qoyuram. İndi isə xahiş edirəm, 4-cü məsələdə olan qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə mən 5-ci məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 109 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Bu bizim 6-cı məsələmizdir. "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Səhiyyə komitəsində baxılıb. Mən indi komitənin sədri hörmətli Əhliman müəllimə söz verirəm. Əhliman müəllim, buyurun.

**Əhliman Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, media mənsubları. 2024-cü il noyabrın 1-də "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda geniş müzakirə edilmiş və qəbul edilmişdir.

Xatırlatmaq istəyirəm ki, qanun layihəsinin əsas qayəsi ambulator müalicə alan xəstələrin dərman vəsaiti ilə təminatının icbari tibbi sığorta ilə qarşılanmasıdır. Müzakirələr zamanı deputat həmkarlarım Aqil Abbas, Səyyad Salahlı, Elşad Musayev, Vüqar Bayramov və Rəşad Mahmudov layihə ilə bağlı fikirlərini söyləmiş və qanun layihəsini dəstəkləmişlər.

Hörmətli həmkarım Vüqar Bayramov ikinci oxunuşun tələblərinə uyğun olaraq, qanun layihəsinin predmetinə aid təkliflər irəli sürmüşdür. Bildirmək istəyirəm ki, həmin

təkliflər komitədə işçi qaydasında, eləcə də Milli Məclis Aparatının müvafiq şöbəsi ilə qanunvericilik təşəbbüsü hüququ olan subyekt arasında geniş müzakirə edilmiş və məqsədəmüvafiq hesab edilməmişdir. Müzakirələrdə iştirak etmiş bütün deputat həmkarlarıma öz dərin təşəkkürümü bildirirəm.

Hörmətli həmkarlar, qanun layihəsini üçüncü oxunuşda da dəstəkləməyinizi xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Rəşad Mahmudov yazılıb. Buyurun, Rəşad müəllim.

**Rəşad Mahmudov.** Çox hörmətli xanım sədr, əslində, əlbəttə ki, bizim komitədə dəstəklənmiş bir qanun layihəsidir. Amma mən bilavasitə son günlərdə cəmiyyətdə baş verən bəzi əks düşüncələrin bu qanun layihəsi ilə birbaşa əlaqəsini dilə gətirmək istəyirəm.

Hamımıza məlumdur ki, xalqın həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində atılan addım kimi, bu cür qanun layihələri təkcə vətəndaşlarımızın məmnunluğunu deyil, həm də dövlətimizin qüdrətini artırmaqla, müstəqilliyimizi də möhkəmləndirir.

Son vaxtlar əlillik meyarları ilə əlaqədar çoxlu müzakirələr gedir. Mən, əslində, büdcə müzakirəsi zamanı komitə səviyyəsində olan görüşlərdə bu fikirlərimi bildirdim.

Əlbəttə ki, Albert Eynşteynin, əslində, son dönəmdə baş verən hadisələri qiymətləndirən çox gözəl bir fikri var. Deyir: “İnsanların zehniyyətini dəyişdirmək atomu parçalamaqdan bəzən çətin olur”.

Bildiyiniz kimi, Səhiyyə komitəsinin həm üzvü, həm də millət vəkili olaraq vətəndaşlarla görüşlərdə mənə ən çox edilən müraciətlərdən biri əlilliklə əlaqəli şikayətlər olur. Mənim həkimlik peşəsi ilə bağlı bir insan kimi də bu sa-

həyə, bu meyarlara uyğun vətəndaş şikayətinin reallıqlarını dərindən araşdırmaq imkanım olur. Sizə birmənalı onu deyə bilərəm ki, bu gün ölkəmizdə əlilliyə görə mübahisəli şəkildə müraciət edən insanların müraciətləri araşdırıldığı zaman əlilliyin verilməsi qərarlarının 99 faizi, əslində, qanunvericiliyə və eləcə də aidiyyəti qurumlar tərəfindən ortaya qoyulan əlillik meyarlarına, – Avropa standartlarında da bu gün çox geniş istifadə olunur və 2020-ci ildən etibarən ötən illər ərzində alışmış olduğumuz "bir çox problemlərimizin" həllini hədəf alır, – uyğun, doğru qərarlardır.

Əslində, əlillik verilməyən insanlara, həqiqətən də, əlillik düşmür. Çünki cəmiyyət arasında xəstəliklə əlilliyin qarışdırılması kimi bir problem var. Çünki xəstəlik birmənalı olaraq başqa bir mövzudur. Mən millət vəkillərinə müraciət etmək istəyirəm ki, əlillik birmənalı olaraq hər hansı bir orqanın öz həyatı üçün lazım olan funksiyalarını yerinə yetirmək imkanını əldən verməsi kimi bir həqiqətdir. O zaman bu gün ölkəmizdə də verilən əlilliklə bağlı qərarlara baxdığımız zaman bunun beynəlxalq səviyyədə qəbul olunmuş standartlara uyğun olduğunu deyə bilərik.

Vətəndaşlara izah etdiyimiz zaman çox gözəl anlayırlar. Hamımızın qarşılaşdığı ikinci bir məsələ. Gəlir ki, həkim, bəli, şəkərin, ürək-damar xəstəliyinin əlilliyə düşmədiyini bilirik, başa düşürük, sizə çox təşəkkür edirik, amma biz dərmanlarımızı necə alaq?

Bəli, bu gün mən fürsətdən istifadə edərək bu qanun layihəsi ilə bağlı bildirmək istəyirəm ki, dövlətin, dövlətin siyasətinin sosial sahədə, xüsusən sosial sahənin ən vacib hissəsi olan vətəndaşların sağlamlığının qorunmasında və səhiyyənin əlçatanlığının ən yüksək səviyyədə təşkil olunmasında məntiqli nəticəsi bugünkü qanunlardır.

Həmin xəstəliklərlə bağlı bundan 4-5 il əvvəllə müqayisəli bir analiz etdiyimiz zaman, 800 milyon manat olan səhiyyə büdcəsi hazırda 3 milyardın üzərindədir. Bunun vermiş olduğu avantajlarla keçən illə müqayisədə, sadəcə, 50 mindən çox insan kəskin infarkt zamanı kəndlərdən şəhərlərə gəlmək üçün 1 ay fikirləşib hansısa qohum-əqrəbasının dəstəyi ilə gəlirdisə, bu gün bölgələrimizdə belə anjuqrafiya müayinələri olunur.

Bununla yanaşı, keçən il ən mürəkkəb açıq ürək əməliyyatları, 300-dən çox insana dövlət sığortası hesabına orqan transplantasiyası olunub. Bunlar rəqəm olaraq deyildiyi zaman, əslində, bir az bizim üçün adi, gündəlik hal kimi görünür. Amma əvvəllər bir qara ciyər transplantasiyasını gözləyən insanların məktubları, bu gün burada iştirak edən insanlar bilirlər ki, dövlət, aidiyyəti qurumlar üçün həll yolu tapmaq o qədər çətin idi ki. Amma şükürlər olsun ki, bu gün dövlət tərəfindən ənənəli bir şəkildə əhalinin həm iqtisadi, həm də sosial rifah halının gücləndirilməsi istiqamətində görülən işlər bizim gözümüz qabağındadır. Bir az əvvəl dediyimiz büdcədə də bununla bağlı çox geniş müzakirələr aparıldı. Düşünürəm ki, bu qanun layihəsi bu gün bizə müraciət edən, əslində, əlillik düşməyən, amma xəstəliyə görə alacağı dəstəyin dərmanlarla ediləcəyini bilən insanların ambulator şəraitdə həkimlər tərəfindən verilmiş dərmanları apteklərdən almasına imkan yaradır. Bu, əslində, bu gün dövlət və cənab Prezident tərəfindən səhiyyə islahatlarının davamlı bir parçası olaraq qarşımıza çıxır.

Ona görə mən düşünürəm ki, bəzən mübahisə, bəzən müzakirələr, bəzən vətəndaşın haqqının haqsız yerə alınması məqamları kimi görünsə də, səhiyyə sahəsində aparı-

lan islahatlarla birlikdə, bunu artıq hamımız görürük, hər birimiz aydın bir şəkildə hiss edirik. Amma sosial sahədə aparılan islahatlar, eləcə də əlilliyin verilməsi ilə əlaqədar ölkədə aparılan siyasət mənə görə çox doğrudur. Amma bir az əvvəl dediyim kimi, köhnə zehniyyəti dəyişdirmək bir az çətin olacaq və zaman alacaq.

Amma hər bir vətəndaş əminliklə bilsin ki, Azərbaycan dövləti, onun Prezidenti hər bir vətəndaşın daha sağlam, gələcəyə inamlı bir şəkildə getməsi, rifah halının daha da yüksəldilməsi üçün hər şeyi edir və edəcək. Bizlər də cənab Prezidentin humanizm bayrağı altında sıx birləşərək gələcəkdə də qarşımıza çıxa biləcək bütün çətinliklərin öhdəsindən layiqincə gələcəyik.

Mənə fürsət yaratdığınıza görə bir daha təşəkkür edirəm və bütün millət vəkillərindən qanun layihəsini dəstəkləmələrini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Rəşad müəllim. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

**Sədrlik edən.** Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ “Qrant haqqında” Qanunda dəyişiklik

edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Mən komitənin sədri hörmətli Azər Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli xanım sədr, təqdim olunmuş layihəyə dair deputat həmkarlarımızın heç bir qeyd və təklifi olmamışdır. Məhz bu səbəbdən layihənin olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar,  sözü, sualı olan yoxdur. Qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ "Daşınar əmlakın yüklülüyü haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihə də Azər müəllim, sizin komitədə baxılıb. Xahiş edirəm, məlumat verin.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, bu layihəyə ilə bağlı da heç bir rəy və təklif olmamışdır. Bu layihənin də səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsi səsə

qoyulur. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ "Arbitraj haqqında" Qanunun icrası ilə əlaqədar bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məlumatı bu gün bizə Kamran Bayramov verəcək. Hörmətli Kamran müəllim, buyurun.

**Kamran Bayramov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Üçüncü oxunuşda müzakirəyə çıxarılmış qanun layihəsinə dair birinci və ikinci oxunuşlar zamanı heç bir təklif irəli sürülmədiyindən, onun olduğu kimi səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə 3 komitədə də baxılmışdır. Birinci komitə Əmək və sosial siyasət komitəsidir. Komitənin rəyini bilmək üçün komitə sədrinin müavini hörmətli Soltan Məmmədova söz verirəm. Soltan müəllim, buyurun, komitənin rəyini bildirin.

**Soltan Məmmədov,** *Milli Məclisin Əmək və sosial*

*siyasət komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm, Sahibə xanım. Komitəmiz tərəfindən qanun layihəsi müzakirə olunmuşdur və həmkarlarımdan üçüncü oxunuşda qanun layihəsinə səs vermələrini xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Azər müəllim, buyurun, komitənin rəyini bildirin.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, layihə komitəmiz tərəfindən dəstəklənir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim. Gənclər və idman komitəsində də baxılıb. Bu gün komitənin rəyini sədrin müavini hörmətli Könül xanım bildirəcək. Könül Nurullayeva. Buyurun.

**Könül Nurullayeva,** *Milli Məclisin Gənclər və idman komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Komitənin rəyi müsbətdir. Qanun layihəsinin səsə qoyulmasını xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Könül xanım. Çıxış etmək istəyən, yəni sözü, sualı olan yoxdur. Mən qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

10-cu məsələ. “Uşaq hüquqları haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Ailə, qadın və uşaq məsələləri komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Hicran xanım Hüseynovaya söz verirəm. Hicran xanım, buyurun.

**Hicran Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, layihədə qeyd edilən tələblər müəssisələrdə xidmətlərin təşkili, yaşayış şəraiti, qidalanma, sağlamlığın mühafizəsi, təlim-tərbiyə və asudə vaxtın təşkili sahələrini əhatə edir. Qanun layihəsində edilən dəyişikliyə əsasən uşaq hüquqlarının həyata keçirilməsinə dair vahid tələb və meyarların əhatə dairəsi genişlənir, sistem şəklində formalaşır. Bu monitorinqlər bütün sahələr üzrə fəaliyyət göstərən dövlət uşaq müəssisələri ilə yanaşı, qeyri-dövlət uşaq müəssisələrində də eyni qaydada keçiriləcək.

“Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi dövlət uşaq siyasətinin həyata keçirilməsində çox mühüm nəticələrə səbəb olacaqdır.

Birinci və ikinci oxunuşlarda ciddi bir dəyişiklik olmamışdır. Müsbət rəy var, ona görə də, xahiş edirik, səsə qoyasınız.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. Ciddi olmayıb, qeyri-ciddi var idi? Yəni, ümumiyyətlə, dəyişikliklər olmayıb, eləmi? Siz dediniz, ciddi dəyişikliklər yoxdur. Onda qeyri-ciddi dəyişikliklər var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Çox sağ olun.

Hörmətli həmkarlar, bu qanun layihəsinə İnsan hüquqları komitəsində də baxılıb. Zahid müəllim, hüquq aspekti Sizə aiddir. Buyurun.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli sədr. Layihəyə komitənin rəyi müsbət olub. Xahiş edirik, səsə qoyaq.

**Sədrlik edən.** Çox sağ olun. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələmiz "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Soltan müəllim, mən sözü Sizə verirəm. Buyurun.

**Soltan Məmmədov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Təqdim olunan qanun layihəsi Əmək və sosial siyasət komitəsində birinci və ikinci oxunuşlarda geniş müzakirə olunmuş, komitəyə ünvanlanmış bütün təklif və suallar nəzərə alınmış və cavablandırılmışdır. Təqdim olunan

qanun layihəsində hər hansı bir dəyişiklik olmadığından, həmkarlarımdan qanun layihəsinə üçüncü oxunuşda müsbət səs vermələrini xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Soltan müəllim, çox sağ olun. Hörmətli Hicran xanım, bu qanun layihəsinə sizin komitədə də baxılıb. Xahiş edirəm, rəyinizi bildirin.

**Hicran Hüseynova.** Rəy və təklif olmadı. Qəbul etməyə hazırıq.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini mən səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Qanunda və digər 6 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair komitənin üzvü hörmətli Əminə xanım Ağazadə məlumat verəcək. Əminə xanım, buyurun.

**Əminə Ağazadə,** *Milli Məclisin Hüquq siyasəti və döv-*

*lət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Qanun layihəsi birinci və ikinci oxunuşlar zamanı ətraflı müzakirə olunmuşdur. Hər hansı bir təklif daxil olmadığından, olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Əminə xanım, çox sağ olun. Sözü, sualı olan yoxdur. Qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti 2 məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və ikinci oxunuşda müzakirəyə təqdim edilir. Biz indi gündəliyin 13-cü məsələsinə keçirik. Bu məsələ Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün yenə də mən Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**Kamal Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Birinci oxunuş zamanı biz bu məsələni geniş müzakirə etmişik. Layihədə hər hansı bir dəyişiklik olmadığı üçün, olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, xatırladım, bu, ikinci oxunuşdur deyə biz qanun layihəsini əvvəlcə əsas kimi qəbul etməliyik. Buyurun, mən qanun layihəsini əsas kimi səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Biz müzakirəyə keçirik. Pərvanə Vəliyeva. Pərvanə xanım, buyurun.

**Pərvanə Vəliyeva.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli xanım sədr, hörmətli həmkarlar və media nümayəndələri. Qanun layihəsinə münasibət bildirmədən öncə, iqlim diplomatiyasında tarixi nailiyyətlər, o cümlədən Bakı maliyyə hədəfinin əldə olunması və beləliklə də, COP29-un uğurla yekunlaşması münasibəti ilə başda cənab Prezidentimiz olmaqla, hər birinizi təbrik etmək istərdim. Bu xüsusda Milli Məclis tərəfindən Beynəlxalq Parlamentlərarası İttifaqla əməkdaşlıq çərçivəsində təşkil edilən 2 günlük yüksək səviyyəli parlament görüşündə, habelə COP29 konfransında iştirakımızı təmin etdiyiniz üçün, hörmətli Sahibə xanım, Sizə öz minnətdarlığımı bildirirəm.

Müzakirə edilən qanun layihəsi dövlətin, cəmiyyətin, fərdlərin təhlükəsizliyinin təmin edilməsi, qanunsuz miq-

rantların uyğun şəraitdə saxlanılması və qanunsuz miqrasiyaya dövlət nəzarətinin gücləndirilməsi ilə bağlı hüquqi çərçivəni müəyyən etdiyi üçün konseptual olaraq qəbul edilməsini zəruri hesab edirəm. Həmçinin ikinci oxunuşun tələbinə uyğun olaraq, qanun layihəsinə əlavə edilməsini zəruri hesab etdiyim bir neçə təklifi səsləndirmək istərdim.

Belə ki, qanun layihəsində subyekt "əcnəbi və vətəndaşlığı olmayan şəxs" kimi qeyd olunmuş, lakin cins və ya yaş kateqoriyasına münasibətdə fərqləndirilməmişdir.

Qanunsuz miqrant ailəsi ilə birgə bu və ya digər səbəbdən saxlanılmış olarsa, yetkinlik yaşına çatmayan şəxslərin, yəni uşaqların ayrılması, xüsusi xidmət müəssisələrinə yerləşdirilməsi və ailə mənşə ölkəsinə göndərilənədək burada saxlanılması təmin edilə bilər. Konstitusiyamızın 17-ci maddəsinin 6-cı bəndində də qeyd olunur ki, "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir". Uşaq hüquqlarına dair qoşulduğumuz beynəlxalq konvensiyalar da bunu tələb edir. Bu mexanizm bir sıra xarici ölkələrin təcrübəsində də tətbiq edilir. Qadınların mərkəzdə kişilərin olduğu bölmədən ayrılıqda saxlanılması ilə bağlı müddəa da qeyd olunmamışdır. 88-ci maddənin 1-ci bəndinə daxil edilməsi məqsədəuyğun olardı.

Qanunun 88-ci maddəsinin 4.2-ci bəndində mərkəzə məcburi şəkildə yerləşdirilən miqrantlara ailəsi və yaxınları ilə, həmçinin onunla bağlı maraq doğuran şəxslərə yalnız bir dəfə telefon əlaqəsi saxlamaq imkanı verilir – qeyd olunub. Əlaqə saxlaması texniki səbəblərdən mümkün olmadığı halda, bir neçə digər zəngləri də etməsi imkanının verilməsi məqsədəuyğun olardı. Bu baxımdan "bir dəfə" ifadəsi buradan çıxarıla bilər.

Qanunun 88-6 maddəsinin 1-ci bəndində qeyd olunur ki, əcnəbi və vətəndaşlığı olmayan şəxs 24 saat müddətində tibbi müayinədən keçirilir. Lakin təklif edərdim ki, mərkəzə gətirilən şəxs sürətli yoluxuculuq qabiliyyətinə malik hər hansı infeksion xəstəliyin daşıyıcısı ola bilmə ehtimalı nəzərə alınaraq, müayinə zamanınadək izolyasiya edilsin. Məsələn, bu şəxs hava-damcı yolu ilə yoluxan aktiv vərəm xəstəsi və ya COVID-19 virusu daşıyıcı ola bilər. Bu zaman şəxsin elə 24 saat ərzində digərlərini yoluxdurma ehtimalı böyükdür. Nəzərə almalıyıq ki, bura qapalı müəssisədir.

Digər tərəfdən, hazırkı Miqrasiya Məcəlləsinə əsasən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti, daimi yaşamaq icazəsi və həmçinin iş icazəsi verilməsindən imtina hallarına səbəblərdən biri kimi şəxsin təhlükəli yoluxucu xəstəlik virusu daşıyıcısı olması da göstərilir. Həmin şəxslərə ölkəni tərk etmək üçün 10 gün vaxt verilir. Əgər könüllü şəkildə tərk etməzlərsə, onlar bu müddət ərzində sözügedən mərkəzdə saxlanılır. Bu isə hazırkı qanun layihəsində yoluxucu xəstəlik daşıyıcısı olan şəxslərin və ya yoluxucu xəstəlik daşıyıcısı olması sübut edilənədək həmin şəxslərin təcriddə saxlanılması ilə bağlı müvafiq əlavənin edilməsini bir daha zəruri edir.

Digər məsələ isə bu kimi xəstəlik daşıyıcısı olan şəxslərin mərkəzdə saxlanılan zaman həyat xilasedici dərman preparatları, o cümlədən insanın immunçatışmazlığı virusu – İİV üçün antivirus terapiyası ilə təmin edilməsi zərurəti ilə bağlıdır. Belə ki, milli qanunvericilikdə qeydiyyat icazəsi olmayan miqrantlara bu kimi preparatların təmin edilməsi öz əksini tapmadığı üçün İİV terapiyası ölkə-

mizdə yalnız yaşamaq icazəsi olan miqrantlar üçün təmin edilir. Bu isə mərkəzdə saxlanılan belə şəxslər üçün həyati risklər deməkdir. Təklif edirəm ki, mərkəzdə saxlanılan İİV-lə yaşayan şəxslər virus yükünün artmaması məqsədi ilə, o cümlədən vərəm xəstələri burada olduqları müddət ərzində sözügedən dərmanlarla təmin edilsinlər. Çünki bu xəstəliklər sərhəd tanımır və qlobal səhiyyə təhdididir.

Belə hallar az olsa da, bu məsələnin qanunda öz əksini tapması ilə həm mövcud boşluq aradan qalxar, həm də gələcəkdə yüzlərcə insana töhfə vermiş olar. Bu, dövlətimizin insan sağlamlığına necə həssas və humanist yanaşmasını bir daha təsbit edər. Qanun layihəsinin 88.6-cı maddəsinə bu əlavənin daxil edilməsini təklif edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Pərvanə xanım. Mənə etdiyiniz minnətdarlıq, əslində, möhtərəm cənab Prezidentə düşür. Çünki COP29 olmasaydı, bizim birgə təşkil etdiyimiz o konfrans da ola bilməzdi.

Kamal müəllim, Əli müəllim, bu təklifləri eşitdiniz. Bunun üzərində sonra işləyərsiniz, baxarsınız, fikirlərinizi deyərsiniz.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Biz münasibət bildirməliyik. Qanun layihəsində 7 maddə var. Xahiş edirəm, indi 1-ci, 2-ci, 3-cü maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

İndi isə qalan 4 maddəni mən səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ 14-cü məsələdir. “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunda dəyişiklik edil-

məsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən sözü Bəhruz Məhərrəmova verirəm. Bəhruz müəllim, buyurun.

**Bəhruz Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Birinci oxunuşda tərəfimizdən, o cümlədən hörmətli komitə sədrləri Zahid müəllim və Hicran xanım tərəfindən ətraflı məlumat verildi, geniş müzakirələr aparıldı. Çıxışlar olsa da, sırf layihənin mahiyyəti üzrə təkliflər olmadığı üçün olduğu kimi səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Bu layihəyə 2 komitədə də baxılıb. Hicran xanım, sizin komitənizdə və Zahid müəllim, sizin komitənizdə. Hicran xanım, buyurun.

**Hicran Hüseynova.** Çox sağ olun, xanım sədr. Bizim komitəmizdə də baxılıb və təklif olunub ki, səsə qoyulsun. Heç bir dəyişiklik yoxdur. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Zahid müəllim, sizin komitənizin rəyi necədir?

**Zahid Oruc.** Hörmətli sədr, layihəyə komitədə rəy müsbət olub. Müzakirə olunacaq və yəqin ki, qəbul olunacaqdır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Zahid müəllim. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul edək. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi. Çıxış etmək istəyən var. Nigar Məmmədova. Nigar xanım, buyurun.

**Nigar Məmmədova.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Uzun müddət həssas əhali qrupu ilə işlədiyim dövrdə məişət zorakılığına məruz qalan şəxslərlə çoxsaylı təmaslarım olduğu üçün bu gün müzakirəsini apardığımız "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunda təklif edilən dəyişikliklər, habelə 9-cu maddənin bir neçə bəndi ilə bağlı öz fikrimi bildirmək istəyirdim.

Qeyd etmək istəyirəm ki, həssas əhali qruplarına qayğı dövlət siyasətinin prioritetini təşkil edir. Bu prosesə dəstək olaraq Heydər Əliyev Fondu tərəfindən də uğurlu layihələr həyata keçirilir. Bu da həssas təbəqənin sosial müdafiəsini daha da gücləndirir.

Zorakılığa məruz qalan, həm də zorakılığı törədən şəxslər bu prosesin əsas iştirakçıları olsa da, zərərçəkənlər sırasında valideynlər, uşaqlar və ailə daxilində yaşayan digər şəxslər də var. Zorakılığın yaratdığı aqressiyanın, daxili gərginliyin uşaqlara və ya ətrafdakı digər insanlara qarşı yönəldilməsi hallarına rast gəlinir ki, bu da yeni zorakılıq mənbəyi yaratmış olur.

Bəli, bu gün qanunvericilik mütəmadi olaraq təkmilləşdirilir, aidiyyəti qurumların reallaşdırdığı layihələr göz qabağındadır. Lakin elə məsələlər var, biz onu müzakirə etməliyik ki, nəticələr əldə edək.

Belə ki, məsələ özlüyündə ölkədə psixoloqların

hazırlıq səviyyəsini yenidən nəzərdən keçirməyi tələb edir. İlk növbədə prosesə peşəkar psixoloqlar cəlb olunmalıdır. Çox incə məqama toxunmaq istəyirəm, xanım sədr. Psixoloqların aldıqları təhsillə təqdim etdiyi xidmətə ciddi nəzarət edilməlidir. Çünki bildiyimiz kimi, psixoloqlar klassifikasiya edilirlər, – bilirik ki, burada bizim peşəkar psixoloqlarımız da oturur, – idman psixoloqları, kliniki psixoloqlar, əmək sahəsində olanlar, ailə psixoloqları, psixo-pedaqoqlar və digər sahələrdə çalışırlar.

Mənim təklifim budur ki, əgər məktəbdə çalışan psixoloqlar, uşaq psixoloqları var, – bu, qanunun 9-cu maddəsində qeyd olunub, – biz bu psixoloqları prosesə cəlb edirik. Biz onları məişət zorakılığına məruz qalan qurbanlarımızla işə cəlb etməməliyik. Çünki metodika tam fərqlidir. Məişət zorakılığına məruz qalan, keçid dövründə olan uşaqlarımız var, biz uşaq psixoloqlarını bu prosesə cəlb etməyək. Bu kimi fəaliyyət həmçinin peşə etikasının da pozulması deməkdir.

Digər tərəfdən, psixoloqlar özlərini daim təkmilləşdirməli, mütəmadi qaydada superviziyaya cəlb olunmalıdırlar. Çünki bizim ali təhsil ocaqlarımızda diplomlarını əldə etdikdən sonra daim beynəlxalq yanaşmaları mənimsəməlidirlər. Yəni psixoloqlar hərtərəfli inkişaf etmiş mütəxəssislər olmalıdırlar ki, düzgün yanaşma tətbiq etsinlər. Məsələn, məişət zorakılığına məruz qalan xanımlarla işlədikdə onları birtərəfli istiqamətə, yəni feminizmə yönəltməməlidirlər. Onlarda ailə dəyərləri ilə yanaşı, özünə güvəni, inamı təşviq etməlidirlər.

Biz birinci oxunuşda statistikaya nəzər saldıq. Hörmətli komitə sədrləri burada statistikanı müzakirə etdilər. Bir sıra səbəblərdən, əlbəttə ki, faktlarının əksəriyyəti gizli

qalmalıdır və qalır da. Lakin bir məsələyə diqqətinizi yönəltmək istərdim.

Bir vacib məqam, vaxtı ilə məişət çərçivəsində zorakılıq tətbiq edən şəxslər yeni ailə qurduqdan sonra onların yeni həyat yoldaşları və övladlarının da potensial yeni qurbanlara çevrilmə riski yaranır. Məlumat nə qədər gizlin də qalsa, biz bu prosesin qabağını almalıyıq. Fikrimcə, məişət zorakılığı tətbiq edən şəxslərə qarşı ictimai qınaq olmalıdır ki, bu prosesin qabağını alaq.

Digər tərəfdən, məişət zorakılığına məruz qalan şəxslərdə qorxu, utanc hissi, yəni komplekslər formalaşır. Məişət zorakılığına məruz qalan şəxslərin cəmiyyətə inteqrasiyasını təşkil etməliyik. Bu gün müqayisə üçün deyim ki, cəmiyyətdə əlilliyi olan şəxslərlə bu kompleksi aradan qaldırmaq istiqamətində çox uğurlu proqramlar həyata keçirilir.

Ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu gün çox gözəl layihələr keçirilir və əlilliyi olan şəxslərlə bu layihələr artıq öz nəticələrini verir. Biz bu kimi layihələri məişət zorakılığına məruz qalan vətəndaşlarımızla da həyata keçirə bilərik.

Burada psixoloqlar hətta multidisiplinar komanda şəklində işləyə bilərlər, sosioloqları, defektoloqları cəlb edə bilərik. Mən burada zorakılığa məruz qalan şəxslərdən danışdım. Amma biz həm də hadisəni törədənləri də reabilitasiya edə bilərik. Əks halda, aparılan prosesdən pozitiv nəticə ala bilməyəcəyik. Bunun üçün isə necə deyərlər, peşəkar psixoloq dəstəyinə, peşəkar psixoloq ordusuna ehtiyac var.

Yekun olaraq, hesab edirəm ki, məişət qurbanları ilə işləyən psixoloqlar öz biliklərini dərinləşdirməlidirlər, öz

təcrübələrini aidiyyəti üzrə yönləndirməlidirlər, onların fəaliyyəti mütləq şəkildə ailə institutunu, milli dəyərləri möhkəmləndirməyə xidmət etməlidir.

Layihəni dəstəkləyirəm, həmkarlarımı da layihəni dəstəkləməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Nigar xanım, çox sağ olun. Siz, əslində, çox maraqlı suallar qaldırdınız. Mən düşünürəm ki, hörmətli Hicran xanım, hörmətli Anar müəllim, sizin iki komitəniz birgə və Səməd müəllim elə peşəkar psixoloqdur, bir dinləmə, bir tədbir keçirin. Əslində, dinləmə yaxşıdır. Burada bizim keçmiş rektorlarımız var. Əhliman müəllim, Siz də buradasınız.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, Bəxtiyar müəllim. Əslində, Nigar xanım dedi, burada bizim həmkarlarımızın arasında peşəkar psixoloqlar var. Mən düşünürəm, Nigar xanım çox düzgün məsələlər qaldırdı. İki komitə arasında dinləmə keçirin, dəvət edin. Psixoloqlar harada təhsil alırlar? Bizim universitetlərdə. Elm və təhsil komitəsi mütləq orada iştirak etməlidir.

Əhliman müəllim, buyurun, söz istədiniz.

**Əhliman Əmiraslanov.** Hörmətli Sahibə xanım, mən qısaca olaraq qeyd etmək istəyirəm ki, biz bir neçə il bundan qabaq "Psixoloji yardım haqqında" çox gözəl bir Qanun qəbul etdik və deputat həmkarımın qaldırdığı məsələlərin bir çoxu orada öz əksini tapıbdır.

**Sədrlik edən.** Əksini tapıb, Əhliman müəllim, ancaq bu gün bu məsələlər hamısı cəmiyyətdə var. Elə həmin o qanuna, – Siz düz deyirsiniz, o qanun bizdə var, – əsaslanaraq ictimai bir dinləmənin keçirilməsinin, mən düşünürəm, çox böyük faydası var. Orada bir məsələni də Ni-

gar xanım vurğuladı ki, reabilitasiya, bir də Siz ictimai qınaq – belə bir söz dediniz. İctimai qınaqmı, yoxsa ictimai tərbiyəmi?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mən düşünürəm ki, bu, Mədəniyyət komitəsinin də işidir. Çünki cəmiyyətdə bu mövzuda, bu məsələ ilə bağlı həm ictimai qınaq, həm də bir tərbiyə də lazımdır. Düşünürəm ki, bu məsələ ilə də məşğul olmaq olar.

Hörmətli həmkarlar, biz işimizə qayıdırıq. Söz istəyən yoxdur. Qanun layihəsinə maddələr üzrə münasibət bildirməliyik. Bu layihə 5 maddədən ibarətdir.

Xahiş edirəm, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

İndi isə 4-cü və 5-ci maddələri mən səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 15-ci məsələyə keçirik. Bu məsələ "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, layihə birinci oxunuşda müzakirəyə təqdim olunur. Yenə də xatırladıram, xahiş edirəm, çıxışlar zamanı birinci oxunuşun tələblərinə əməl edəsiniz.

Qanun layihəsinə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Mən indi hörmətli Sadiq müəllimdən xahiş edəcəyəm, ətraflı məlumat versin. Buyurun.

**Sadiq Qurbanov.** Çox sağ olun. Dəyərli Sahibə xanım, hörmətli həmkarlar. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun

layihəsinin qəbul olunması zərurətinin əsaslandırılmasını diqqətinizə çatdırmaq istəyirəm.

Belə ki, qanun layihəsi "Enerji effektivliyi fondunun yaradılması və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 mart tarixli 13 nömrəli Fərmanının icrasının təmin edilməsi məqsədi ilə hazırlanmışdır.

İki maddədə dəyişiklik nəzərdə tutulub. Birinci dəyişiklik barədə onu deyə bilərik ki, bu layihəyə əsasən qanunun 16.2.1-ci maddəsində enerji resurslarının "tarif və qiymətlərində fonda ayrılması nəzərdə tutulan vəsait", – söhbət enerji resurslarının satışından əldə olunan vəsaitdən gedir, – sözlərinin enerji resurslarının "satış məbləğində fonda ayrılması nəzərdə tutulan vəsait" sözləri ilə əvəz olunması təklif olunur.

Dəyişikliyin edilməsi zərurəti qiymətlərinə dövlət tənzimlənməsi tətbiq olunmayan, istehsal və istehlak həcminə görə əhəmiyyətli paya malik olan və eləcə də istehsal və istifadəsi nəticəsində ətraf mühitə mənfi təsir göstərən enerji növlərinin satışından əldə olunan vəsaitdən enerji effektivliyi fonduna köçürmələrin edilməsi üçün hüquqi əsasın yaradılmasıdır.

Təklif edilən dəyişiklik nəticəsində yalnız tarifləri tənzimlənən deyil, eləcə də digər enerji resurslarının, yəni reaktiv mühərrik yanacaqları, maye qazlar və soba mazutu, o cümlədən Aİ-95 və Aİ-98 markalı avtomobil benzininin satışından əldə olunan vəsait enerji effektivliyi fonduna köçürüləcəkdir. Bu da toplanan vəsait hesabına enerji effektivliyi üzrə tədbirlərin həyata keçirilməsi üçün dövlət proqramlarının icrasının dəstəklənməsi, müvafiq sahənin elmi-texniki təminatı, "ağıllı sayğac"ların və sis-

temlərin tətbiqi, kogenerasiya qurğularının tətbiqi, həmçinin bərpa olunan enerji mənbələrindən istifadə üçün daha əlverişli şəraitin yaradılması, bərpa olunan enerji mənbələri sahəsində layihələrin dəstəklənməsi, təsərrüfat subyektlərinin fəaliyyəti nəticəsində ətraf mühitə mənfi təsirin qarşısının alınması və enerji resurslarından səmərəli istifadə sahəsində tədbirlərin həyata keçirilməsi məqsədi ilə qrant və subsidiyaların ayrılması, o cümlədən pilot layihələrin tətbiqi və güzəştli kreditlərin verilməsi kimi stimullaşdırma vəsaitlərindən istifadəyə imkan yaradacaqdır.

İkinci dəyişiklik isə qanunun 16.3-cü maddisində "və enerji effektivliyi fondunun saxlanılması xərclərinin" sözlərinin çıxarılması ilə bağlıdır. Çünki Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 mart tarixli 13 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Enerji effektivliyi fondunun vəsaitlərinin formalaşdırılması və istifadə Qaydası"nın 1.2-ci bəndində fondun vəsaitlərindən fondun saxlanılması xərclərinin maliyyələşdirilməsi üçün istifadə olunacağı qeyd olunmuşdur. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Prezidentinin sözügedən məlum fərmanının 3.1-ci hissəsində "fondun enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi üzrə tədbirlərin stimullaşdırılması və təşviqi məqsədi ilə" yaradıldığı qeyd olunmuş və onun vəsaitinin sərəncamçısı kimi Enerji Məsələlərini Tənzimləmə Agentliyi qismində Azərbaycan Respublikasının Energetika Nazirliyi müəyyən edilmişdir.

Normativ hüquqi aktın qəbul edilməsinin ehtimal olunan nəticələrinin proqnozlaşdırılması barədə onu deyə bilərik ki, layihə qəbul edildikdən sonra heç bir normativ hüquqi aktda dəyişikliyə ehtiyac qalmayacaqdır.

Deputat həmkarlarımı bu qanun layihəsini dəstək-

ləməyə dəvət edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Sadiq müəllim. Çıxış etmək istəyənlər var. Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən də qanun layihəsini dəstəkləyirəm. Eyni zamanda, bu qanun layihəsi kontekstindən bir neçə konseptual məsələlərə diqqəti cəlb etmək istərdim.

Əvvəla, nəzərə alsaq ki, Azərbaycan COP29-a uğurla ev sahibliyi edən ölkədir. Azərbaycan enerji effektivliyi, eləcə də yaşıl enerji keçidini dəstəkləyən ölkələrdəndir. Bütövlükdə, regionda yaşıl enerji sektoruna ən çox investisiya cəlb edən ölkə məhz Azərbaycandır. Son illər yaşıl enerji istehsalına 1 milyard dollardan artıq investisiya cəlb edilib ki, bu da, təbii, yalnız Azərbaycanda deyil, bütövlükdə, regionda yaşıl enerji effektivliyi, eləcə də enerji resurslarından səmərəli istifadəyə xüsusi bir töhfədir.

Bütün bunlarla yanaşı, hörmətli xanım sədr, çox təəssüf ki, həm COP29-a hazırlıq mərhələsində, həm də hətta COP29 təşkil edildikdən sonra bir sıra Qərb dairələrində Azərbaycana qarşı qərəzli mövqelər nümayiş etdirilməyə başladı. Xüsusi ilə də Azərbaycanı petroset adlandıran, yaşıl enerji sahəsindəki səylərini qərəzli şəkildə sual altına almağa çalışan həm yerli, həm də, təbii ki, xarici qruplar vardı. Bu kontekstdə mən bir neçə məqama diqqət çəkmək istəyirəm.

Əvvəla, Azərbaycan Avropa İttifaqı daxil olmaqla regionun enerji təhlükəsizliyinə töhfə verən ölkədir. Xatırlatmaq lazımdır ki, Rusiya–Ukrayna müharibəsi başladıqdan sonra məhz o soyuq qış günlərində Azərbaycan Avropaya mavi qaz ixracatını artırdı və Avropanın artıq

mavi qaz idxalında ilk beşlikdə olan ölkədir. Amma eyni zamanda, çox paradoksal müraciətlərdən biri ondan ibarətdir ki, ölkəmizi qərəzli şəkildə qınayan ölkələr, əslində, Azərbaycanla müqayisədə daha çox neft və qaz hasil edirlər. Nəzərə alsaq ki, Azərbaycan neft hasilatına görə dünyada 25-cidir, bu siyahıda ilk yerləri Amerika Birləşmiş Ştatları, Rusiya Federasiyası, Səudiyyə Ərəbistanı, Kanada və İran tutur. Göründüyü kimi, baxmayaraq ki, Azərbaycan neft hasilatında nəinki ilk onluqda, ilk iyirmilikdə deyil, amma gündəlik hasilatı 5 milyon barel olan Kanada və eləcə də Kanada mətbu orqanları 0,6 milyon barel neft hasil edən Azərbaycanı petroset adlandıraraq məhz ikili yanaşma nümayiş etdirirlər.

Mavi qaz hasilatına görə Azərbaycan dünyada 23-cüdür. Yenə də Amerika Birləşmiş Ştatları dünyada ən çox qaz hasil edən ölkədir. Kanada ilk beşlikdədir. Yenə də, çox təəssüf ki, bir sıra Qərb ölkələrinin mətbu orqanları, hətta bir sıra parlamentləri tərəfindən məhz qərəzli qətnamələrin qəbul edilməsinə və Azərbaycanın qlobal iqlim dəyişikliyi, eləcə də ətraf mühitlə bağlı səylərə verdiyi töhfəni sual altına almağa çalışanlar var.

"Yaşıl iqtisadiyyat"ın formalaşmasına, eləcə də enerji effektivliyi ilə bağlı xüsusi ilə qeyd etmək istərdim ki, hazırda Azərbaycanda, bütövlükdə, ümumi enerji istehlakının 17 faizi yaşıl enerjinin payına düşür. Cənab Prezident tərəfindən müəyyənləşmiş hədəflərə görə 2030-cu ilədək ümumi istehlakda yaşıl enerjinin payı 35 faizə qədər yüksələcək. Eyni zamanda, Azərbaycan məhz möhtərəm Prezidentin müəyyənləşdirdiyi siyasətə uyğun olaraq, 2030-cu ilədək karbon emissiyasını 40 faiz azaltmaq niyyətindədir.

Bu gün qlobal beynəlxalq təşkilatların statistikası göstərir ki, qlobal karbon emissiyasında Azərbaycanın payı 0,1 faizə belə çartmır, halbuki bu rəqəm Amerika Birləşmiş Ştatlarında 12,6 faiz, Hindistanda 7,6 faiz, Avropa İttifaqında 6,4 faiz, Kanadada 2 faizə yaxındır. Yəni göründüyü kimi, bir tərəfdən, Azərbaycan qlobal karbon emissiyasında çox cüzi paya malikdir, bütün bunlarla yanaşı, Azərbaycan karbon emissiyasının minimallaşdırılması və növbəti illərdə hətta bunun yarıya qədər azaldılması ilə bağlı hədəfləri müəyyənləşdirib. Amma eyni zamanda, nəzərə alsaq ki, 2024-cü ilin ilk 10 ayının yekunlarına əsasən Azərbaycanda yaşıl enerji hasilatı 80 faiz artıb.

Əslində, müqayisədə rəqəmlər göstərir ki, bütövlükdə, Azərbaycan yaşıl enerjinin və enerji effektivliyinin güclənməsinə töhfə verən ölkədir. Bu baxımdan, təbii ki, həm xarici, həm də daxili qrupların reallığa qərəzsiz və açıq gözlə baxması lazımdır. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Vüqar müəllim. Soltan Məmmədov. Buyurun.

**Soltan Məmmədov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Bakıda keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində təşkil olunmuş parlament konfransında qəbul olunmuş sənəddə yer almış və gərgin müzakirələrə səbəb olmuş məsələlərdən biri də ənənəvi enerji növlərinin istehsalı sahəsində ayrılan subsidiyalar, bu subsidiyaların ləğv olunması təklifləri və ətraf mühitin qorunması üçün həyata keçirilən tədbirlərə ayrılan investisiyalar olmuşdur.

Belə ki, Beynəlxalq Valyuta Fondunun hesabatlarına görə bir sıra ölkələr tərəfindən 2022-ci ildə qlobal ümumi

daxili məhsulda qazıntı enerji növlərinin istehsalına ayrılan subsidiyaların payı 7,1 faiz təşkil edir. Bunun bərpa olunan enerji keçidinə əngəl yaratmasını əsas gətirərək subsidiyaların dayandırılması və bu istiqamətlərdə parlamentlərə qanunverici bazada dəyişikliklərin aparılması ilə bağlı tövsiyələrin parlament konfransının sənədinə daxil edilməsi təklif edilmişdir.

Müzakirələrdə təqdim olunmuş alternativ fikirlər ənənəvi enerji növlərinin istehsalının təkmilləşdirilməsi, səmərəli istifadəsi və tullantıların qarşısının alınması məsələlərinin prioritet olduğunu və dövlətlərin bu istiqamətdəki siyasətlərinin vacibliyini önə çıxarır. Nəticədə bu çağırış subsidiyaların səmərəliliyi kimi sənədə daxil edildi.

Təbii resursların səmərəli istifadəsi və xalqın rifahına xidmət etməsi ölkəmizin enerji siyasətinin əsas prinsipləridir. Bu istiqamətdə həyata keçirilən tədbirlər və müzakirə olunan qanun layihəsi təbii resursların xalqın rifahına xidmət etməsini təmin etməklə yanaşı, ətraf mühitin qorunması, yaşıl enerjiyə keçid üçün müasir texnologiyanın istifadəsində praktiki və elmi işlərin tətbiqinə imkan yaradır. Təklif edilən dəyişikliklər, eyni zamanda, enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi üzərində təşviqedici tədbirlərin həyata keçirilməsinə xidmət edir.

Qanunda yalnız tarifləri tənzimlənən enerji növləri deyil, eyni zamanda, istehsal və istehlakına görə əhəmiyyətli paya malik olan, ətraf mühitə mənfi təsir göstərən enerji növlərinin satışından əldə olunan maliyyə vəsaitinin enerji effektivliyinə xidmət edən tədbirlərə yönəldilməsi nəzərdə tutulur. Hesab edirəm ki, bu, ölkəmizin beynəlxalq platformalarda müdafiə və təşviq etdiyi siyasətə sadiq

olduğunu sübut edir. Düşünürəm ki, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda təklif olunan dəyişiklik bu gün beynəlxalq ictimaiyyətin müzakirə etdiyi əsas məsələlərdən birinin həll olunmasını nəzərdə tutur. Çünki dəyişikliklər enerji növlərinin satışından enerji effektivliyi fonduna daxil olan vəsaitlərin artmasına səbəb olacaq. Həmin vəsaitlər də bərpa olunan enerji mənbələrindən daha geniş istifadə üçün mexanizmlərin qurulmasına imkan verəcəkdir.

Sonda, gələcək müzakirələr üçün bir təklifimi bildirmək istərdim. Enerji effektivliyi fondunun vəsaitlərinin formalaşdırılması üçün enerji istehsalçısı ilə yanaşı, energetika sahəsində xidmət göstərən texnoloji şirkətlərin də fəal iştirakını təşviq edən tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı. Ümumilikdə, təklif olunan qanun layihəsini dəstəkləyir və həmkarlarımı layihəyə səs verməyə çağırıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Elçin Mirzəbəyli. Buyurun.

**Elçin Mirzəbəyli.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hörmətli Sahibə xanım, öncə mənə və həmkarım Mixail Zabelinə Moskvada MDB ölkələrinin parlamentlərarası münasibətlərində siyasi partiyaların, fraksiyaların və blokların rolu mövzusunda keçirilən konfransda iştiraka imkan yaratdığınız üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Hesab edirəm ki, bu səfər, bütövlükdə, həm MDB məkanındakı proseslərin öyrənilməsi, siyasi partiyalar arasında əlaqələrin qurulması, həm də bizim üçün mühüm məqam olan faşizm ilə, eyni zamanda, onun hər cür, həmçinin Ermənistandakı təzahürlərinə qarşı fikirlərimizi ifadə etmək üçün olduqca faydalı oldu.

Qanunla bağlı fikirlərimi ifadə etmək istəyirdim. Təbii ki,

burada təklif olunan dəyişiklikdə, qüvvədə olan redaksiyada, xüsusi ilə də enerji effektivliyi fondunun mənbələrinin formalaşdırılmasından söhbət gedir. 16.2.1-ci maddədə enerji resurslarının tarif və qiymətlərində fonda ayrılması nəzərdə tutulan vəsait konkret olaraq ifadə olunub. Daha aydın ifadədir. Çünki enerji resurslarının satışından əldə olunan vəsaitin bir hissəsini nəzərdə tutur. Təklif olunan redaksiyada isə enerji resurslarının "satış məbləğinin də fonda ayrılması nəzərdə tutulan vəsait"dən söhbət gedir.

Yəqin ki, burada ikinci oxunuşa aid olsa da, enerji resurslarının satışı məbləğindən söhbət getməlidir. Qənaətimə görə bu, Azərbaycan dilinə daha çox uyğun olardı. Amma bir xüsusi məqama diqqəti çəkirəm. "Satış məbləği" kifayət qədər geniş və ümumi bir anlayışdır. Tutaq, əgər təklif olunursa, təbii qaz, elektrik enerjisi, Aİ-92 və yaxud dizel yanacağının istehsalçı qiymətlərlə ölkə daxilində satışını həyata keçirən subyektlər elə həmin vəsaiti, satış məbləğini fonda köçürməlidirlər, məntiqlə belə anlaşılır ki, dizel yanacağının litri 1 manata satılırsa, həmin o 1 manat da həmin o fonda köçürülməlidir. Qənaətimə görə burada daha aydın ifadə tərzinə ehtiyac var. Qənaətimə görə, deməli, fonda köçürülən vəsaitlərin artırılmasının hansı vəsaitlər hesabına olacağı daha dəqiq şəkildə ifadə olunsun. Məsələn, konkret olaraq satışdan əldə olunan və müvafiq icra hakimiyyəti orqanının müəyyələşdirdiyi məbləğdə vəsaitdən söhbət gedərsə, fikrimcə, bu, daha düzgün yanaşma olar. İndiki təqdimatda belə anlaşılır ki, satış subyektləri satdığı məhsuldan gələn vəsaiti olduğu kimi fonda köçürməlidirlər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Elçin müəllim. Fərid müəllim,

hörmətli Elçin müəllimin dediyi təkliflər, əslində, ikinci oxunuşa aiddir. Ona görə də, xahiş edirəm, indidən baxın ki, onlar ikinci oxunuşa aid olan təkliflərin sırasında olsun. Əlibala Məhərrəmzadə. Buyurun, Əlibala müəllim.

**Əlibala Məhərrəmzadə**. Təşəkkür edirəm. Xanım sədr, hörmətli millət vəkilləri. Son vaxtlar deputat qəbullarında ən çox səslənən problemlərdən biri də qazlaşdırma ilə əlaqəlidir. Mən hesab edirəm ki, bu gün Azərbaycanda dünya ölkələri üzrə lider səviyyəsində olan 97 faiz qazlaşdırma olmağına baxmayaraq, o prosesi camaata çatdırmaq üçün fikrimi bildirmək istəyərdim.

Qalan o 3 faiz bununla bağlıdır ki, hansı isə çox uzaq məsafələrə, böyük infrastrukturların qurulması ilə əlaqəli proseslər getməlidir. O, heç də səmərəli xərclər deyil, yəni böyük infrastrukturları qurmaq üçün, yəni deyək ki, dağ kəndlərində, şəhərlərdən uzaq yerlərdə o qazlaşdırmanı həyata keçirməkdənsə, mənə elə gəlir, alternativ enerji mənbələrindən istifadə edilməlidir. Həmin o abonentlərə məlumat verilsin ki, sizdə daha qazlaşdırma olmayacaq və o investisiyanı, onun səmərəsini, nəticəsini hesablasaq, görərik ki, bəlkə də yüz illərcə kompensasiya verilsə, o investisiya qədər ödəniş olmayacaq, bu məsələni hansı isə bir qaydada həll etməliyik. Qazlaşdırma prosesinə alternativ enerji deyərkən, bax, bizdə çox təəssüf ki, regionlarda məişət tullantıları yığınağı var. Böyük yerlər tutulur və o məişət tullantıları heç bir halda emal da olunmur. Mən hesab edirəm ki, onu alternativ bir qaydada, hansı isə məsələn, xaricdə, Avropada bioqaz istehsal edirlər, indi bioqaz, ola bilsin, bir az bahalı bir prosedurdur, amma ona baxaraq, alternativ enerji mənbələri ilə həmin o prosesləri həll etmək olar. Həmin o qazın çatdırılmasının əvəzinə

istiliyi ayrı bir mənbədən vermək olar.

Eyni zamanda, “Azəriqaz”ın boynuna düşən böyük investisiyaları, – son illərdə bu, 3 faiz civarına düşüb, – onları da dəyişdirmək olar. Gələcəkdə onu nəzərə almağımız çox böyük səmərə verərdi və “Azəriqaz” da həmin o proseslərdən uzaqlaşardı. Eyni zamanda, insanlar da bilərdi ki, həmin regionda qazlaşdırma olmayacaq və bu hansı isə bir qaydada – odunla, alternativ enerji ilə, büdcə ilə kompensasiya olunacaqlar.

**Sədrlik edən.** Oldu, sağ olun. Daha çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörməti həmkarlar, bizim iclasımız başa çatdı. Növbəti iclasımız ayın 3-də olacaq. Dekabrın 3-də və 4-də bizdə büdcə məsələlərinin ikinci oxunuşu olacaq. Sağ olun.

# MÜNDƏRİCAT

29 noyabr 2024-cü il ............................................................ 3

Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

12-ci cild

29 noyabr 2024-cü il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 5,5. Sifariş 6. Tiraj 150.